ELM
Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...
Nizami Gəncəvi

НАУКА
Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE
Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 13 (1495) ❖ Cümə, 17 aprel 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur

# Azərbaycanşünaslığın inkişafı və azərbaycançılıq konsepsiyası



## Dövlətin əsas ideyası

Ümumiyyətlə, fəlsəfədə ”ideya” anlayışı əsas yerlərdən birini tutur. Onun müxtəlif izahları vardır. Platon mənasında ideya reallığın proobrazıdır. Yəni reallıq ideyaya uyğun qurulur (Platon idealist idi). Deməli, Paltona görə, ideya dəyişməz mahiyyətdir. O, dəyişən, hissi əşyalar dünyasından ayrı mövcuddur.

Materialistlərə görə, ideya reallığı müəyyən etmir, əksinə, ideya reallığı əks etdirir. Bu anlayışın dinin fəlsəfəsində özəl anlamı vardır. Lakin bütün hallarda ideyaya fəlsəfədə böyük əhəmiyyət verilir.

Birincisi, ideya zəka ilə dərk edilir. Yəni o, insanın yüksək rasional dərketmə qabiliyyətinə aiddir. Hesab olunur ki, buna görə ideya hadisələrin əsas və mahiyyətə aid xüsusiyyətlərini fərqləndirə bilir. Yəni ideyanın yüksək idraki rolu vardır.

İkincisi, ideya fikri proobrazdır. Bu keyfiyyətdə o, insan təfəkkürü və fəaliyyətinin əsasını formalaşdırır.

Üçüncüsü, ideya öz kontekstinə uyğun olaraq insanı dünyaya ”daxil” edir.

Bunlar geniş fəlsəfi-elmi ədəbiyyatda rast gəlinən və ideya haqqında ən ümumi təsəvvürləri ehtiva edən məqamlardır. Onları ümumiləşdirsək, alarıq ki, ideya ”ali məqsədi müəyyən edir”. Bu tezis bizim üçün dövlətin əsas ideyası anlayışına keçid məsələsində əhəmiyyətlidir.

Beləliklə, hər hansı bir dövlətin əsas ideyası cəmiyyətin mövcudluğu və inkişafı haqqında elə bitkin, obyektiv və hərəkətverici təsəvvürdür (İbn Rüşt mənasında - obraz+onun məntiqi təsdiqi) ki, dövlət-cəmiyyət-qövm vəhdətinin ekzistensial varlığını (yəni mövcudluğun ontoloji olaraq gerçəkləşməsini) təmin edir.

Buradan alınır ki, dövlətin əsas ideyası onun mahiyyətinə uyğun müəyyən edilməklə yanaşı, gerçəkləşməsi üçün adekvat praktiki fəaliyyəti də özündə ehtiva etməlidir. Bu isə konkret zaman-məkan kontinumunda konsepsiya ilə praktiki reallaşmanın bir-birini tamamlamasını tələb edir.

Bu qısa nəzəri-konseptual özəlliklər prizmasında müstəqil Azərbaycanın əsas ideyasına baxaq.

## Müstəqil Azərbaycan dövlətinin əsas ideyası

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin əsas ideyasını aşağıdakı kimi ifadə etmişdir: ”Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”.

Deməli, ən geniş anlamda Azərbaycan dili, milli-mənəvi dəyərləri, adət-ənənələri vəhdət halında azərbaycançılığın əsasını təşkil edir. Azərbaycan dövləti də bu anlamda azərbaycançılığı özünün əsas ideyası kimi yaşatmalıdır. Təbii ki, dövlət həmin məqsəd naminə sistemli, daim inkişaf etdirilən konsepsiyalar hazırlamalı və onları dövlət-cəmiyyət-millət vəhdətində davamlı olaraq reallaşdırmalıdır.

Prezident İlham Əliyev azərbaycançılıq ideyası və ideologiyasının inkişaf etdirilməsi zərurəti haqqında konkret və dəqiq fikir ifadə etmişdir. Dövlət başçısı demişdir: ”Azərbaycançılıq ideologiyası, azərbaycançılıq prinsipləri Azərbaycanda çoxdan bərqərar olub. Ulu öndər Heydər Əliyevin bizə qoyduğu dəyərli miraslardan biri də məhz azərbaycançılıq məfkurəsidir. Biz - onun davamçıları isə bu müsbət meyilləri öz tərəfimizdən daha da gücləndiririk”.

Azərbaycan lideri azərbaycançılıq ideyası və ideologiyasının müstəqil dövlət quruculuğu kontekstində məzmununu da dolğun müəyyən etmişdir. Pezident İlham Əliyev demişdir: ”Azərbaycanda müasir dövlət quruculuğu prosesi uğurla gedir. Eyni zamanda, biz milli-mənəvi dəyərlərimizə də çox sadiqik, onları qoruyuruq. Azərbaycan dəyərləri bizim üçün müstəsna əhəmiyyət daşıyır. Əsrlər boyu Azərbaycan xalqı milli-mənəvi dəyərlərini, ana dilini - Azərbaycan dilini qoruya bilmişdir. Bu gün müasir Azərbaycan dövləti bu möhkəm təməl üzərində yaranır, güclənir və bölgədə, regionda artıq çox mühüm amilə çevrilibdir”.

Dünya azərbaycanlılarının III qurultayındakı nitqində (05 iyun 2011-ci il) Azərbaycan Prezidenti geniş aspektdə azərbaycançılığın dövlət quruculuğu və cəmiyyətin inkişafında rolu və Azərbaycan qövmünün tarixi missiyası haqqında əsas tezislərini ifadə etmişdir: ”Azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq, daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olmalıdırlar. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olub. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir”.

*(davamı 3-cü səhifədə)*

# Azərbaycan-Türkiyə elmi əməkdaşlığı genişlənir

## *AMEA ilə Ərdəhan Universiteti arasında memorandum imzalanacaq*

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Türkiyənin Ərdəhan Universitetinin rektoru prof., Dr. Öztürk Emiroğlu ilə görüşüb.**



Akademik İsa Həbibbəyli görüş zamanı tarixi köklərə söykənən Azərbaycan ilə Türkiyə arasında mövcud dostluq, qardaşlıq münasibətlərinin bu gün çoxşaxəli xarakter daşıdığını vurğulayıb. Qeyd edib ki, bu münasibətlər tarixən formalaşmış ortaq dəyərlərə, mədəni bağlılığa və qarşılıqlı etimada əsaslanır və bu gün də bütün sahələr üzrə, xüsusilə elm və təhsil istiqamətində də dinamik şəkildə inkişaf edir. Akademik İsa Həbibbəyli bu gün AMEA-nın qardaş ölkənin Elmlər Akademiyası (TÜBA), TÜBİTAK, Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu kimi akademik qurumları və bir çox ali təhsil müəssisəsi ilə sıx əməkdaşlıq etdiyini söyləyib.

AMEA-nın fəaliyyəti barədə də məlumat verən akademik İsa Həbibbəyli Akademiyanın zəngin və şərəfli tarixə malik olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, AMEA yarandığı gündən etibarən ölkəmizdə elmin inkişafında aparıcı rol oynayıb və bu gün də həmin missiyanı uğurla davam etdirir.

AMEA-da hazırda aparılan elmi tədqiqat istiqamətləri barədə də danışan akademik İsa Həbibbəyli müasir dövrün çağırışlarına uyğun olaraq yeni texnologiyaların tətbiqinə xüsusi diqqət yetirildiyini vurğulayıb. O, xüsusilə süni intellekt sahəsində aparılan araşdırmaların genişləndirildiyini, bu istiqamətdə innovativ layihələrin həyata keçirildiyini qeyd edib. Akademik İsa Həbibbəyli bildirib ki, süni intellektin humanitar və ictimai elmlərə inteqrasiyası prioritet istiqamətlərdən biri hesab olunur.

Öz növbəsində çıxış edən Ərdəhan Universitetinin rektoru Öztürk Emiroğlu rəhbərlik etdiyi ali təhsil müəssisəsinin fəaliyyəti, inkişaf strategiyası və beynəlxalq əlaqələri haqqında geniş məlumat verib. Rektor qeyd edib ki, universitetin əsas məqsədlərindən biri beynəlxalq əməkdaşlığı genişləndirmək və ortaq elmi layihələrin sayını artırmaqdır.

Öztürk Emiroğlu, eyni zamanda, rəhbərlik etdiyi universitetin alimlərinin Cənubi Qafqaz regionunun arxivlərində Ərdəhanla bağlı tarixi materialların araşdırılması istiqamətində xüsusi maraq göstərdiklərini bildirib. Vurğulayıb ki, bu cür tədqiqatlar regionun tarixi keçmişinin daha dərindən öyrənilməsinə, eləcə də ortaq mədəni irsin üzə çıxarılmasına mühüm töhfə verə bilər. Rektor bu istiqamətdə AMEA ilə əməkdaşlığın xüsusilə əhəmiyyətli olacağını qeyd edib.

Görüş zamanı tezliklə tərəflər arasında qarşılıqlı əməkdaşlıq memorandumunun imzalanması məsələsi də ətraflı müzakirə olunub. Bildirilib ki, bu müqavilə çərçivəsində tarix, arxeologiya, ədəbiyyat və digər humanitar və ictimai elmlər sahəsində birgə tədqiqatların aparılması, elmi konfransların təşkili və ortaq nəşrlərin hazırlanması nəzərdə tutulur. Həmçinin gənc tədqiqatçıların və doktorantların qarşılıqlı təcrübə proqramlarında iştirakı da planlaşdırılır.

Çıxışlardan sonra qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkilləri çəkdirilib.

Sonda Ərdəhan Universitetinin rektoru prof., Dr. Öztürk Emiroğlunun rəhbərlik etdiyi nümayəndə heyətinin üzvləri AMEA Rəyasət Heyətinin binası ilə tanış olub, Birinci Türkoloji Qurultayın keçirildiyi Böyük zala və iclas zalına baxıblar. Qonaqlara binanın tarixi haqqında geniş məlumat verilib.

# Özbəkistanlı alimlər AMEA-da



**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Özbəkistanın Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti nəzdində Dövlət dilində iş aparılması əsaslarının tədrisi və ixtisasartırma Mərkəzinin direktoru professor İnomjon Azimov və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Qonaqlar əvvəlcə AMEA-nın Rəyasət Heyətinin binası ilə tanış olaraq, tarixi və memarlıq xüsusiyyətləri barədə ətraflı məlumat alıblar. Tanışlıq zamanı Birinci Türkoloji Qurultayın keçirildiyi Böyük Zalı da ziyarət ediblər.

Görüşdə akademik İsa Həbibbəyli iki ölkə arasındakı sarsılmaz dostluğun və elmi və mədəni irsin möhkəm təməl üzərində qurulduğunu bildirib. Qeyd edib ki, Prezident İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev arasındakı səmimi qardaşlıq münasibətləri xalqlarımızın birliyinin əsas təminatçısıdır. Bu birlik təkcə siyasi deyil, həm də ortaq mədəniyyətimizə fayda gətirən mənəvi bir bağdır.

AMEA prezidenti Özbəkistanın hər zaman Azərbaycanın yanında olduğunu, xüsusilə II Qarabağ müharibəsi zamanı dəstəyini vurğulayıb. Bu gün işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Xankəndidə həyata keçirilən layihələrin bu birliyin bariz nümunəsi olduğunu deyib.

Akademik İsa Həbibbəyli iki ölkənin Elmlər Akademiyaları və universitetləri arasında əlaqələrin sürətlə inkişaf etdiyini qeyd edərək, hər il fevral ayında Bakıda böyük mütəfəkkir Əlişir Nəvainin xatirəsinə həsr olunmuş "Nəvai Günləri"nin keçirilməsinin artıq gözəl bir ənənəyə çevrildiyini bildirib.

"Nizami Gəncəvi, Məhəmməd Füzuli və Əlişir Nəvai təkcə Türk dünyasının deyil, bəşəriyyətin dühalarıdır. Əlişir Nəvai Nizami Gəncəvini özünə ustad hesab edib, bu mənəvi varislik əsrlər boyu xalqlarımızı bir-birinə bağlayıb. Son illərdə AMEA-da Əlişir Nəvai haqqında kitablar çap edilib, elmi konfranslar keçirilib. Nizami Gəncəvinin "Xəmsə"si özbək dilinə, Əlişir Nəvainin "Xəmsə"si isə Azərbaycan dilinə tərcümə olunaraq nəşr olunub. Özbək əsilli tədqiqatçı Xalid Səid Xocayev M.Kaşğarinin "Divani lüğət-it-türk" əsərini dilimizə tərcümə edib", - deyə akademik İsa Həbibbəyli diqqətə çatdırıb.

AMEA rəhbəri Bakıda keçirilən Birinci Türkoloji Qurultayın 100 illik yubiley tədbirində Özbəkistan nümayəndə heyətinin fəal iştirakını və ortaq əlifba məsələsindəki töhfələrini ehtiramla xatırladıb.

Görüşdə professor İnomjon Azimov Azərbaycan və Özbəkistan arasında əlaqələrin həm elm, həm mədəniyyət, həm də ortaq gələcəyə baxış istiqamətində daha da dərinləşməkdə davam etdiyini bildirib. Bu gün Bakıda göstərilən qardaşlıq münasibəti və birgə araşdırmalar üçün yaradılan şəraitin xalqlarımızın ortaq gələcəyinə xidmət edən ən böyük töhfə kimi qiymətləndirib.

Professor İnomjon Azimov rəhbərlik etdiyi mərkəzin Özbəkistanda dövlət dilinin tədrisi və tətbiqi istiqamətində mühüm missiyanı yerinə yetirdiyini deyib. Ortaq dilimizi müasir elmi metodlarla inkişaf etdirmək istiqamətində AMEA-nın müvafiq institutları ilə sıx və məhsuldar əməkdaşlıq quracaqlarını vurğulayıb.

Professor özbək dilində "Əlişir Nəvai Ensiklopediyası", "Birinci Türkoloji Qurultayının stenoqrafik hesabatı (26 fevral - 5 mart 1926-cı il)" və "Özbək ədəbi dili imla qaydalarının formalaşma tarixi" kitablarını akademik İsa Həbibbəyliyə hədiyyə edib.

AMEA prezidenti öz növbəsində qonaqlara Azərbaycan mədəniyyəti, Qarabağ və Şuşa həqiqətləri barədə kitablar bağışlayıb.

# Amerikalı mütəxəssislərlə görüş




**ABŞ Dövlət Departamentinin qlobal səhiyyə təhlükəsizliyi sahəsində aparıcı yardım proqramı olan STRİDES layihəsinin direktoru Bekka Prays, "Black & Veatch" şirkətinin Beynəlxalq İnkişaf üzrə direktoru Kyle Huston, ABŞ Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzinin (CDC) Şərqi Avropa və Mərkəzi Asiya ofisinin icraçı direktoru Stiven Beknell, CDC-in icraçı direktor müavini Coel Stanoeviç və baş texniki müşavir Lia Gvinjiliyadan ibarət nümayəndə heyəti AMEA-nın Rəyasət Heyətində olublar.**

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli qonaqlarla görüş zamanı Akademiyanın ölkəmizdə elmin inkişafındakı rolundan, müasir dövrün çağırışlarına uyğun olaraq aparılan tədqiqatlardan və beynəlxalq əməkdaşlıq əlaqələrindən bəhs edib, xüsusilə son dövrlərdə süni intellektə dair araşdırmaların diqqət mərkəzində saxlanıldığını vurğulayıb.

Həmçinin son illərdə AMEA-nın beynəlxalq elmi müstəvidə əməkdaşlıq əlaqələrinin genişləndiyini, Akademiyanın dünya elmində söz sahibi olan akademik təşkilatların tamhüquqlu üzvü seçildiyini bildirib.

ABŞ nümayəndə heyətinə daxil olan mütəxəssislərin apardıqları tədqiqatların son dövrlərdə dünyanı bürümüş pandemiyalar fonunda xüsusi aktuallıq kəsb etdiyini deyən akademik İsa Həbibbəyli Azərbaycan alimlərinin də bu məsələləri diqqətdə saxladığını, AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin əhatə etdiyi müəssisələrdə bu istiqamətdə mühüm tədqiqatlar aparıldığını söyləyib.

Akademik İsa Həbibbəyli ötən il bölmənin mütəxəssisləri tərəfindən bioloji proseslərin molekulyar-genetik əsasları, genom, kompüter biologiyası, süni intellektin biologiya və təbabətdə tətbiqi, dərman preparatlarının işlənib hazırlanmasında və reproduktiv təbabətdə yüksək texnologiyaların və kök hüceyrələrinin tətbiqi istiqamətində mühüm tədqiqatların aparıldığını və əldə olunmuş nəticələrin nüfuzlu jurnallarda işıq üzü gördüyünü bildirib.

AMEA rəhbəri amerikalı mütəxəssislərlə birgə layihələrin perspektivdə yüksək nəticələr verəcəyini söyləyib.

Daha sonra qonaqlara xatirə hədiyyələri təqdim olunub.

Qonaqlar sonda AMEA-nın Rəyasət Heyətinin binası ilə tanış olublar.

Qeyd edək ki, nümayəndə heyətini ABŞ-ın Azərbaycandakı səfirliyinin əməkdaşları - İqtisadiyyat şöbəsinin rəis müavini Alexander Ryan, kommersiya üzrə mütəxəssis Gövhər Məmmədova və tərcüməçi Aygün Rəhimova müşayiət ediblər.

Görüşdə, həmçinin AMEA-nın vitse-prezidenti, Biologiya və Tibb Elmləri Bölməsinin Elmi şurasının sədri akademik İradə Hüseynova, AMEA-nın Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq elmi təşkilatlarla iş şöbəsinin müdiri dosent Esmira Əlirzayeva, sözügedən Bölmənin və şöbənin əməkdaşları iştirak ediblər.

# Akademik Zərifə Əliyevanın məzarı ziyarət edilib

**15 aprel görkəmli alim, akademik Zərifə Əliyevanın anım günüdür. Bu münasibətlə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti akademik İradə Hüseynova və AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin əməkdaşları I Fəxri Xiyabanı ziyarət ediblər.**



Ziyarətçilər öncə xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə gül dəstələri düzüblər.

Daha sonra akademik Zərifə Əliyevanın məzarı önünə tər güllər qoyulub, elmi və mənəvi irsi bir daha minnətdarlıq hissi ilə yada salınıb.

Akademik Zərifə xanım Əliyeva Azərbaycan oftalmologiya məktəbinin formalaşmasında və inkişafında müstəsna rol oynayıb. Onun rəhbərliyi və təşəbbüsü ilə göz xəstəliklərinin profilaktikası, peşə patologiyaları və oftalmoloji xidmətin təkmilləşdirilməsi istiqamətində mühüm elmi nəticələr əldə edilib. Görkəmli alimin tədqiqatları beynəlxalq elmi mühitdə də yüksək qiymətləndirilib, elmi irsi müasir tibb elminin inkişafında aktuallığını bu gün də qoruyub saxlayır.

Yüksək milli-mənəvi keyfiyyətləri, müasirlik və inkişafa bağlılığı, xeyirxah və nəcib əməlləri, mənalı ömrü ilə seçilən akademik Zərifə Əliyevanın ziyalı obrazı və işıqlı xatirəsi heç zaman unudulmayacaqdır.

# Azərbaycanşünaslığın inkişafı və azərbaycançılıq konsepsiyası

*(əvvəli 1-ci səhifədə)*

Nəhayət, Prezident İlham Əliyev tərəfindən azərbaycançılıq ideyası, prinsipi və ideologiyasının beynəlxalq kontekstdə mənalandırılması çox əhəmiyyətlidir. Bu bağlılıqda dövlət başçısının aşağıdakı fikirləri hər bir azərbaycanlı - ziyalı, fəhlə, gənc, qoca, məmur və digər bütün təbəqələr üçün dövlət quruculuğu kontekstində yaşam tərzi, fəaliyyət kompası olmalıdır: "Bizi fərqləndirən əlamət ondan ibarətdir ki, harada yaşamağımızdan asılı olmayaraq, öz Vətənimizə bağlıyıq. Bura bizim vətənimizdir, hamımızın vətənidir. Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var - Azərbaycan! Bizim bir dilimiz var - Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var - azərbaycançılıq məfkurəsi! Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar. Həmişə bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər".

## Azərbaycançılıq ekzistensial amil kimi

Azərbaycan türk dövlətidir. Bu, əbədi həqiqətdir. Azərbaycançılıq olmasa, ümumiyyətlə, Azərbaycan dövlət kimi davamlı mövcud ola bilməz. Yəni azərbaycançılıq, bir çoxlarının təhrif etdiyi kimi milli etnik mənsubiyyəti deyil, dövlətin hər bir vətəndaşının ölkə, cəmiyyət və birgəyaşam forması haqqında ideyanı ifadə edir. Uzun müddət Turandan (haqlı olaraq, İrandan (tarixi-coğrafi əsası vardır) danışmışıq, ancaq konkret Azərbaycan ölkəsi haqqında dəqiq müəyyən edilmiş mövqeyimiz (ölkəyə münasibət baxımından) olmasa? müstəqil Azərbaycan dövləti qura bilmərik. Müstəqil Azərbaycan dövləti olmasa, Türk dünyasının "qəlbi dayanmış olar". Bu mənada, düzgün dərk edilmiş azərbaycançılıq ideya, prinsip və ideoloji konsept kimi bizim üçün ekzistensial hökmü olan "Böyük Yol"un mayaklarıdır!

Buradan çıxış edərək qonşu ölkələr, türk dövlətləri, dünyanın hər bir guşəsində olan ölkələrlə münasibətlər qurmağın perspektivli fəlsəfi və siyasi-nəzəri yönünü müəyyən edə bilərik.

Bu reallıq azərbaycançılığı bizim üçün ayrıca əhəmiyyətli faktora çevirir, çox incə, sayğılı və perspektivi olan kurs müəyyən etməyi aktuallaşdırır. Şükürlər ki, belə çətin və mürəkkəb vəzifənin öhdəsindən ulu öndər Heydər Əliyev məharətlə gələrək dəqiq inkişaf kursu müəyyən etmişdir və Prezident İlham Əliyev onu uğurla inkişaf etdirir. İndi müstəqil Azərbaycan dövlət quruculuğu Heydər Əliyev-İlham Əliyev xətti üzrə davamlı inkişaf etdirilir.

## Humanitar elmdə azərbaycançılıq

Yuxarıda qısa şəkildə vurğulanan məqamlar belə bir avtomatik nəticə çıxarmağa istiqamətləndirir: Müasir Azərbaycan humanitar elmi təfəkkürü üçün azərbaycançılıq fundamental idraki əhəmiyyət daşıyır. Bu, obrazlı desək, cəmiyyətlə yanaşı, humanitar elmimiz üçün də ekzistensial aktuallıq kəsb edir.

Həmin anlamın digər aspekti XXI əsrin xüsusiyyətləri ilə sıx bağlıdır. Belə ki, XXI əsrdə aparıcı rolu cəmiyyət oynayır. Cəmiyyət bir sistem kimi özlüyündə aparıcı ideyanı, onun funksionallığını, hərəkətverici gücünü və kollektiv kimliyi layiqli təmsiletmə keyfiyyətini ehtiva edir.

Daxili və xarici ekzistensial mövcudluq şərtləri fonunda azərbaycançılığın adekvat elmi dərkinin Azərbaycan dövlətçiliyi və cəmiyyətin bütövlüyü üçün nə dərəcədə yüksək əhəmiyyət kəsb etdiyi aydın görünür. Bu kontekstdə AMEA-nın yeniləşməsində birinci prioritet istiqamətin nəyə görə birbaşa azərbaycançılıq və azərbaycanşünaslıqla bağlı olduğu səbəbi məlum olur. Həmin prioritet istiqaməti bir daha təqdim edirik:

"- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin andiçmə mərasimində ifadə olunmuş azərbaycançılıq ideologiyasının elmi-nəzəri və tarixi-fəlsəfi əsaslarının işlənib hazırlanması və bütün istiqamətlər üzrə həyata keçirilməsi ölkə elminin, Azərbaycan Milli Elmlər Akademiyasının qarşısında duran əsas vəzifələrdəndir. AMEA-nı ölkəmizin əsas Azərbaycanşünaslıq mərkəzinə çevirmək bizim əsas vəzifəmizdir".

Burada iki məqamı vurğulamaq lazım gəlir. Birincisi, azərbaycançılıq təməli azərbaycanşünaslığın daim aktuallaşması zərurəti vurğulanır. İkincisi, bu vəzifə əslində bütövlükdə müasir Azərbaycan humanitar elmi qarşısında durur.

Həmin vəzifənin öhdəsindən gəlmək ölkə elmi camiəsinin qarşısında dayanıbsa, deməli, bütövlükdə Azərbaycan ziyalı kəsiminin həmin istiqamətdə birgə fəaliyyəti tələb olunan əsas şərtlərdən biridir. Həmin anlamda AMEA tədqiqatların koordinasiyaedici və motivasiyaedici mərkəzi rolunu oynamaq məsuliyyətini öz üzərinə götürə bilər.

Ümumiyyətlə, Azərbaycan humanitar elmi təfəkküründə azərbaycançılığın ideya olaraq həmişə yeri olmuşdur. Bunu həmin istiqamətdə aparılan tədqiqatlar sübut edir. Porblemin bu aspekti əsasən filoloji tədqiqatlar çərçivəsində araşdırılmışdır. Həmin tədqiqatların nəzəri-konseptual təhlilinə xüsusi monoqrafiyalar da həsr edilmişdir. Burada onların hər biri üzərində ayrıca dayanmaq imkansızdır. Həm də həmin elmi problem müxtəlif aspektlərdən tədqiq edilmişdir. Biz burada akademik İsa Həbibbəylinin 2019-cu ildə nəşr edilmiş "Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri" (Bakı, "Elm", 2019, 368 s.) adlı əsərində yer almış və birbaşa azərbaycançılığa aid olan əsas müddəalara nəzər salacağıq.

*(ardı var)*

**Füzuli QURBANOV**
**fəlsəfə elmləri doktoru**

# ABŞ-nin səhiyyə təşkilatlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyəti ilə AMEA Biologiya və Tibb Elmləri Bölməsi arasında görüş keçirilib

**Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin qlobal səhiyyə təhlükəsizliyi sahəsində aparıcı yardım proqramı olan STRİDES layihəsinin direktoru Bekka Prays, Black & Veatch şirkətinin Beynəlxalq İnkişaf üzrə direktoru Kyle Huston, ABŞ Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzinin (CDC) Şərqi Avropa və Mərkəzi Asiya ofisinin icraçi direktoru Stiven Beknell, CDC-in icraçı direktorunun müavini Coel Stanoeviç və baş texniki müşavir Lia Gvinjiliyadan ibarət nümayəndə heyəti ilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətində AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova arasında görüş keçirilib.**





Görüşdə AMEA Rəyasət Heyəti aparatı Xarici əlaqələr və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdiri biologiya üzrə fəlsəfə doktoru, dosent Esmira Əlirzayeva, AMEA Biologiya və Tibb Elmləri Bölməsinin (BTEB) üzvləri, AMEA-nın müxbir üzvləri - Bakı Dövlət Universitetinin kafedra müdiri Elşad Qurbanov, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Həkimləri Təkmilləşdirmə İnstitutunun kafedra müdiri Şakir Musayev və AR ETN Molekulyar Biologiya İnstitutunun laboratoriya müdiri Pənah Muradov, müvafiq şöbənin və Bölmənin əməkdaşları iştirak ediblər.

Akademik İradə Hüseynova qonaqları səmimi salamlayaraq, onların fəaliyyətinə uğurlar arzulayıb və AMEA ilə beynəlxalq təşkilatlar arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıb. O, ötən il AMEA-nın və BTEB-in 80 illik yubileyinin qeyd olunduğunu xatırladaraq, Azərbaycan elminin zəngin inkişaf yoluna diqqət çəkib. Vitse-prezident müxtəlif dövrlərdə bölməyə rəhbərlik etmiş görkəmli alim və səhiyyə təşkilatçılarının fəaliyyətini qeyd edərək, onların biologiya və tibb elmlərinin inkişafına verdiyi töhfələrdən danışıb.

Bildirilib ki, BTEB-in əlaqələndiriciliyi ilə ölkədə biologiya, aqrar və tibb elmlərinin müxtəlif istiqamətlərində - məhsuldarlığın fizioloji və genetik əsasları, stresə davamlılığın molekulyar mexanizmləri, biomüxtəlifliyin qorunması, mikroorqanizmlərin ekologiyası və biokimyası, eləcə də xəstəliklərin diaqnostikası və müalicəsi sahələrində mühüm elmi nəticələr əldə olunub. Hazırda Bölmə bu sahələrdə elmi fəaliyyətin koordinasiyasını həyata keçirir, prioritet istiqamətləri müəyyənləşdirir və əldə olunan nəticələrin praktik tətbiqinə dəstək verir.

Akademik İradə Hüseynova çıxışında müvafiq dövlət qurumları, o cümlədən Səhiyyə Nazirliyi, ali təhsil müəssisələri və elmi-tədqiqat institutları ilə əməkdaşlığın genişləndirildiyini vurğulayıb. Qeyd olunub ki, bu əməkdaşlıq elmi potensialın birləşdirilməsi və innovativ nəticələrin praktik sahəyə transferi baxımından xüsusi əhəmiyyət daşıyır.

Pandemiya təcrübəsinə toxunan vitse-prezident qlobal səhiyyə təhlükəsizliyinin təmin olunmasında beynəlxalq elmi əməkdaşlığın həlledici rol oynadığını bildirib. Onun sözlərinə görə, bu sahədə birgə fəaliyyət həm risklərin operativ qiymətləndirilməsinə, həm də effektiv cavab mexanizmlərinin formalaşdırılmasına imkan yaradır. Eyni zamanda, ABŞ ilə elmi əlaqələrin uğurla inkişaf etdiyini qeyd edən akademik bir neçə Azərbaycan aliminin - akademik Cəlal Əliyev məktəbinin tanınmış nümayəndələrinin ABŞ-ın nüfuzlu elmi mərkəzlərində uğurla fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Görüşdə çıxış edən STRİDES layihəsinin direktoru Bekka Prays qonaqpərvər qarşılanmaya görə təşəkkürünü bildirib və rəhbərlik etdiyi proqramın məqsədləri barədə məlumat verib. O qeyd edib ki, layihə çərçivəsində əsas diqqət ölkələrdə ictimai səhiyyə sistemlərinin gücləndirilməsinə, epidemioloji nəzarət imkanlarının artırılmasına və kadr potensialının inkişafına yönəlib.

Görüş zamanı tərəflər arasında əməkdaşlığın perspektivləri, birgə layihələrin həyata keçirilməsi, mütəxəssis hazırlığı, prioritet istiqamətlər və mövcud ehtiyaclar ətrafında geniş fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, belə təmaslar Azərbaycan ilə ABŞ arasında elmi və institusional əməkdaşlığın daha da dərinləşməsinə, eləcə də qlobal səhiyyə təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfə verə bilər.

# Tarixçi alim Musa Mərcanlının kitablarının elmi müzakirəsi





**AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanınmış tarixçi və publisist, tarix üzrə fəlsəfə doktoru Musa Mərcanlının rəhbərliyi ilə nəşr olunmuş "Azərbaycan. Yeni era", "Tükənməz xəzinə", "Şirvanşahların minilliyi", "Dirçəliş. Başlanğıc", "Dağları toplamaq vaxtıdır", "Qarabağ Yeni sətirdən" və "Şuşa. Zirvədən uca" adlı kitabların müzakirəsi keçirilib.**




Tədbiri giriş sözü ilə AMEA Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli açaraq tarix üzrə fəlsəfə doktoru Musa Mərcanlının zəngin yaradıcılıq yoluna nəzər salıb, müzakirəyə təqdim olunan nəşrlərin elmi əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, Azərbaycan, rus və ingilis dillərində nəfis tərtibatla çapdan çıxmış bu əsərlər ölkəmizin beynəlxalq miqyasda tanıdılmasına xidmət edir. Kitablarda zəngin faktoloji materiallar və fundamental elmi araşdırmalar əsasında Azərbaycanın maddi-mədəni irsi, qədim tarixi, müasir inkişaf mərhələsi, dünya siyasətində əldə etdiyi uğurlar, eləcə də gəzməli-görməli məkanları geniş ictimaiyyətə təqdim olunur.

Akademik Teymur Kərimli, həmçinin bu nəşrlərin elmi və ictimai dəyəri nəzərə alınaraq Bakı Dövlət Universiteti (BDU) tərəfindən 2026-cı il üzrə Dövlət Mükafatına təqdim edildiyini diqqətə çatdırıb.

Sonra BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Əliş Ağamirzəyev çıxış edərək Azərbaycanın mədəni irsinin, tarixi abidələrinin və nadir memarlıq nümunələrinin elmi əsaslarla tədqiqi, öyrənilməsi və təbliği məqsədilə universitetdə Mədəni İrsi Araşdırmalar Mərkəzinin yaradıldığını deyib. O, Əməkdar jurnalist Musa Mərcanlının sözügedən Mərkəzə direktor təyin edildiyini bildirib.

Prorektor qeyd edib ki, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olunduqdan sonra işğaldan azad edilmiş ərazilərdə yerləşən, tarixi əsrlərlə ölçülən mədəni irsimizin araşdırılması xüsusi aktuallıq kəsb edir. Bu baxımdan mədəni irs sahəsində elmi-tədqiqat işlərinin aparılması, elmi və elmi-kütləvi məqalələrin hazırlanması mühüm vəzifələr sırasında dayanır.

Əliş Ağamirzəyev Mədəni İrsi Araşdırmalar Mərkəzinin bu istiqamətdə həyata keçirdiyi məqsədyönlü fəaliyyəti yüksək qiymətləndirərək, aparılan araşdırmaların nəticələrinin elmi ictimaiyyətə və geniş oxucu auditoriyasına çatdırılmasında mərkəzin böyük rol oynadığını diqqətə çatdırıb.

Musa Mərcanlının baş redaktoru olduğu "İrs" jurnalının fəaliyyətini xüsusi qeyd edən Əliş Ağamirzəyev işğaldan azad edilmiş ərazilərdə mədəni irsin yerində araşdırılması məqsədilə davamlı elmi səfərlərin təşkil olunduğunu vurğulayıb.

O, Musa Mərcanlının rəhbərliyi ilə nəşr olunan "Azərbaycan. Yeni Era", "Tükənməz xəzinə", "Şirvanşahların minilliyi", "Dirçəliş. Başlanğıc", "Dağları toplamaq vaxtıdır", "Qarabağ Yeni sətirdən" və "Şuşa. Zirvədən uca" kitablarının Azərbaycanın tarixi həqiqətlərinin zəngin faktoloji materiallar əsasında təqdim edildiyini söyləyib. Əsərlərin elmi çəkisi və ictimai əhəmiyyəti nəzərə alınaraq, onların Bakı Dövlət Universiteti tərəfindən Dövlət Mükafatına təqdim edildiyini diqqətə çatdırıb.

Daha sonra çıxış edən Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə elmi müzakirəsi keçirilən yeddi kitabın müasir dövrün çağırışları baxımından son dərəcə aktual olduğunu deyib. Bildirib ki, bu nəşrlərin hər biri Azərbaycanın tarixi, mədəni irsi və müasir inkişaf mərhələsinin elmi əsaslarla təqdim olunması baxımından mühüm əhəmiyyət daşıyır. Dolğun təsəvvür yaradan çoxsaylı fotoşəkillər isə kitabları daha oxunaqlı edib.

Ərtegin Salamzadə müzakirəyə təqdim olunan "Dağları toplamaq vaxtıdır" adlı fundamental nəşrin məziyyətlərindən danışıb. Vurğulayıb ki, kitabda Qərbi Azərbaycanın xalqımıza məxsus qədim diyar olduğu elmi-faktoloji materiallar əsasında təqdim edilib. Həmçinin regionda yerləşən və müxtəlif dövrlərdə məhv edilmiş və ya izləri silinmiş memarlıq, dini, eləcə də digər mədəni abidələrin foto və sənədli sübutları ictimaiyyətə təqdim olunub.

Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, professor İlham Məmmədzadə çıxış edərək nəfis tərtibatı, yüksək bədii-estetik görünüşü ilə seçilən nəşrlərin Azərbaycanın tarixini, mədəniyyətini, milli irsini və mədəni dəyərlərini dünyanın müxtəlif dillərində təqdim etdiyini bildirib. Qeyd edib ki, bu kitabların hər biri yüksək poliqrafik keyfiyyəti, məzmunu, dili ilə seçilir və bu da onların Azərbaycanı beynəlxalq arenada layiqincə təmsil etməsinə imkan yaradır.

Professor İlham Məmmədzadə "Azərbaycan: yeni era" kitabı ilə bağlı fikirlərini bölüşərək bildirib ki, nəşrdə ölkəmizin son 30 ildə əldə etdiyi nailiyyətlər sistemli şəkildə əks olunub. Eyni zamanda, Azərbaycanın bu gün hansı siyasi və iqtisadi reallıqda yaşadığı, müstəqillik illərində ölkədə hansı şəraitin formalaşdığı ətraflı göstərilib. Əsərdə "yeni era"da Azərbaycanda baş vermiş əsas proseslər, qazanılmış qələbələr, heyrətamiz iqtisadi göstəricilər, müxtəlif sahələr üzrə inkişaf, eləcə də beynəlxalq arenadakı uğurlar işıqlandırılıb.

Onun sözlərinə görə, kitabda Azərbaycan ərazilərinin işğaldan azad olunması, post-müharibə dövründə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri, Böyük Qayıdış prosesinin başlanması və Qarabağın yenidən dirçəldilməsi geniş şəkildə şərh olunub.

Professor İlham Məmmədzadə inam, ləyaqət və mənəviyyatın xalqı birləşdirən dəyərlər olduğunu deyərək müzakirəsi keçirilən kitabların bu ideyaları elmi-fəlsəfi baxımdan daha da dərinləşdirdiyini, cəmiyyətdə milli həmrəyliyin və mənəvi sabitliyin möhkəmlənməsinə xidmət etdiyini vurğulayıb.

Tədbirdə AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktor müavini, tarix elmləri doktoru Eynulla Mədətli, AMEA Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov və Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Rəhimoğlu çıxış edərək nəşrlərlə bağlı fikirlərini bölüşüblər. Kitablar qazanılmış tarixi Zəfər ideyasını mərkəzə alaraq Qarabağ həqiqətlərini, Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan yeni tarixi mərhələni, Azərbaycanın siyasi, mədəni və ideoloji reallıqlarını və ölkəmizin zəngin tarixi irsini elmi-faktoloji əsaslarla əks etdirən əsərlər kimi qiymətləndirilib.

Çıxışlarda kitabların milli-mənəvi baxımdan dəyəri xüsusi qeyd edilib. Bildirilib ki, bu nəşrlər yalnız məlumat toplusu deyil, həm də Azərbaycanın suverenliyinə və dövlətçilik ənənələrinə hörmətin təsdiqidir. Əsərlər milli yaddaşın qorunmasında və Azərbaycanın müasir tarixi kimliyinin təbliğində xüsusi rol oynayır.

Bu nəşrlərin əsas məqsədi barədə danışan layihə rəhbəri Musa Mərcanlı kitabların uzun illər ərzində Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdıran "İRS-Naslediye" jurnalı əsasında hazırlandığını qeyd edib. Onun fikrincə, beynəlxalq auditoriyanın buna böyük ehtiyacı var və buna görə də nəşrlərin müxtəlif dillərdə çap edilməsi xüsusilə vacibdir.

Qeyd edilib ki, tarixi Qələbə ideyasına əsaslanan kitablar Qarabağ reallıqlarını, Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan hazırkı mərhələni, eləcə də Azərbaycanın siyasi, mədəni və ideoloji proseslərini və ölkənin zəngin tarixi irsini əks etdirir.

# Biblioqrafik göstərici

**Biologiya sahəsində tanınmış alim, AR ETN Genetik Ehtiyatlar İnstitutunun şöbə müdiri, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü Saleh Məhərrəmovun 60 illik yubileyi münasibətilə elmi işlərinin biblioqrafik göstəricisi nəşr olunub.**




AMEA-nın Mərkəzi Elmi Kitabxanasının tərtibatında işıq üzü görən biblioqrafik göstərici biologiya elmləri doktoru, professor Saleh Məhərrəmovun həyatı və elmi fəaliyyətinin əsas tarixlərini, kitab, məqalə və məruzələrini, həmçinin alim haqqında yazılmış mənbələri əks etdirir.

Saleh Məhərrəmovun tədqiqatları Azərbaycan florasında geniş yayılan bitkilərin antihelmint təsirlərinin öyrənilməsi və Naxçıvan MR-in helmint faunasının araşdırılması məsələlərini əhatə edir. Alimin elmi tədqiqatlarının nəticələri 199 elmi əsərdə, o cümlədən 4 monoqrafiya, 3 dərslik, 1 dərs vəsaiti, 1 metodik vəsait, 2 təklif-tövsiyə, 6 proqram, 182 məqalədə öz əksini tapıb. Bəzi elmi əsərləri Almaniya, Rusiya, Türkiyə və digər xarici ölkələrin nüfuzlu elmi jurnallarında dərc olunub. Onun elmi rəhbərliyi və məsləhətçiliyi ilə 1 elmlər doktoru, 8 fəlsəfə doktoru dissertasiyası müdafiə olunub.

S.Məhərrəmov 2013-2019-cu illərdə Naxçıvan Dövlət Universitetinin rektoru vəzifəsində çalışıb və uzun illər həmin universitetdə fəaliyyət göstərmiş Dissertasiya şurasının sədri olub. Hazırda AR ETN Genetik Ehtiyatlar İnstitutunun nəzdindəki Dissertasiya şurasının sədr müavinidir, eləcə də Azərbaycan Dövlət Aqrar Universitetində pedaqoji fəaliyyətini davam etdirir. O, "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilib, Əməkdar elm xadimi fəxri adına, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi" medalına layiq görülüb.

AMEA Rəyasət Heyətinin müvafiq qərarına əsasən "Görkəmli Elm xadimləri" seriyası altında tərtib olunan biblioqrafik göstəricinin elmi redaktoru MEK-in direktoru texnika elmləri doktoru Hüseyn Hüseynovdur. Vəsaitin redaktorları Biblioqrafiya şöbəsinin müdiri fil.ü.f.d. Aytən Əliyeva və Elmi biblioqrafiya sektorunun rəhbəri Nərgiz Novruzova, tərtibçisi isə baş biblioqraf Afət Məmmədovadır.

Biblioqrafiya zoologiya sahəsində çalışan alim və mütəxəssislər, ali məktəb tələbələri, o cümlədən geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Qeyd edək ki, bu nəşrin elektron versiyası ilə kitabxananın saytındakı elektron kitabxana bölməsində tanış olmaq mümkündür.

# "Sənətkarın elmi pasportu" seriyasından növbəti monoqrafiya

**Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin böyük elmi işçisi Mənzər Niyarlının (Hüseynova) "Sənətkarın elmi pasportu" seriyasından Salidə Şəmmədqızının kiçik bədii nəsri" adlı monoqrafiyası nəşr edilib.**




Üç fəsildən ibarət olan monoqrafiyada Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru, Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, yazıçı, ədəbiyyat nəzəriyyəçisi Salidə Şərifovanın elmi və bədii yaradıcılığı geniş şəkildə tədqiq edilir. Mənzər Niyarlı (Hüseynova) ədəbiyyatşünas və yazıçı Salidə Şəmmədqızının (Salidə Şərifova) ədəbiyyatşünaslıq fəaliyyəti ilə yanaşı, satirik kiçik nəsrinin janr xüsusiyyətlərinə, özünü göstərən bədii refleksiyaya, bədii və elmi janrların qarşılıqlığına, postmodern, yumor, sarkazm və s. kimi məqamlara aydınlıq gətirir. Mənzər Niyarlı Salidə Şərifovanın bədii yaradıcılığında Sabir satirasının ənənələrini davam etdirməsini "Ədəbiyyatşünas və yazıçı Salidə Şəmmədqızı (Salidə Şərifova)", "Salidə Şəmmədqızının kiçik nəsrinin janr xüsusiyyətləri", "Salidə Şəmmədqızının nəsrində Sabir satirasının ənənələri" adlı fəsillərdə tədqiq edir.

Monoqrafiyanın elmi redaktoru və "Elmi və bədii yaradıcılığı bir müstəvidə tədqiq edən ədib - Salidə Şəmmədqızı (Salidə Şərifova)" adlı ön sözün müəllifi filologiya elmləri namizədi, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Səyyad Arandır. Monoqrafiyanın rəyçiləri filologiya elmləri doktoru, professor, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsinin müdiri Məmməd Əliyev, filologiya elmləri doktoru, professor AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin müdiri Vüqar Əhməd, filologiya elmləri doktoru, dosent, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələr şöbəsinin müdiri Almaz Binnətova, filologiya elmləri doktoru, dosent, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin baş elmi işçisi Gülbəniz Babayeva və AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun XX əsr (Sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin böyük elmi işçisi Dilarə Adilovadır.

**Son zamanlar Azərbaycan dilçiliyində dil tarixi məsələlərinin tədqiqinə geniş yer verilir. Bu, təbii bir prosesdir. Ona görə ki, bügünkü ədəbi dilimizin varlığını - onun tarixi keçmişini aşkarlamaq, onun keçib gəldiyi tarixi mərhələlərə nəzər salmaq, araşdırmaq vacib məsələlərdəndir və həmçinin dil tarixi Azərbaycan dilçilik elminin qarşısında duran araşdırılması vacib olan sahələrdəndir. Bu baxımdan dilin tarixi qatlarına baş vurmaq, onun milli özəlliklərini aşkarlamaq, müasirliklə müqayisəli tədqiq etmək dilin Azərbaycan dilinin gələcək inkişafına güclü təkan vermiş olur.**




# Azərbaycan ədəbi dilinin XV əsr mərhələsi: müasir tədqiqat konteksində

Filologiya elmlər doktoru Aynur Famil qızı Paşayevanın "XV əsr Azərbaycan ədəbi dili" adlı bu yeni elmi əsəri aktual bir mövzuya - dilçilik elmində öz töhfələri ilə iz qoymuş klassik dövr ədəbi dilinə həsr olunmuşdur. Məlumdur ki, klassik dövr Azərbaycan ədəbiyyatının inkişafı özünəməxsus şəkildə səciyyələnir, yeni imtiyazlar, keyfiyyət və motivlər hesabına daha da zənginləşirdi. Bu dövrdə Azərbaycan dilinin hüdudları genişlənərək şimaldan Dərbənd, qərbdən Anadolu, cənubdan İran körfəzinə qədər ərazini əhatə edirdi. Bu dönəmdə bir çox yaradıcı, ustad şairlər tarixdə öz ədəbi-bədii izini buraxdı. Seyid İbrahim Gülşəni, Nemətullah Kişvəri, Xəlili, Həqiqi, Süruri, Hamidi, Qasım Ənvar, Əfsəhəddin Hidayət və digərlərini nümunə göstərə bilərik. Onların həyatı heç də ürəkaçan olmamış, bəziləri sürgün edilmiş, bəziləri mövcud siyasi durumla razılaşmayaraq vətəni tərk etmiş, bəziləri də zorla köçürülmüş, həyat və yaradıcılıqlarının müəyyən bir hissəsini vətəndən uzaqlarda davam etdirmişlər. Qeyd edək ki, belə bir mürəkkəb dövrdə Azərbaycan dilində normaların müəyyənləşməsində ümumxalq dilinin təsiri danılmazdır və "XVI yüzilliyin rəsmi dövlət dilinə keçid üçün zəmin hazırlamışdır", - deməyə əsas verir. Müəllif tərəfindən XV əsr Azərbaycan ədəbi dili ilk dəfə nəzəri cəhətdən araşdırılır, fonetik-orfoqrafik, leksik, qrammatik normaları kompleks şəkildə linqvistik tədqiqata cəlb edilir. XV əsr Azərbaycan ədəbi dilinin tarixi mənzərəsində dildaxili və dilxarici faktorların yüksələn xətlə inkişafından bəhs olunur. Belə ki, anadilli auditoriyanın genişlənməsinin əsas səbəblərindən biri kimi həmin dövrdə qüdrətli söz sənətkarları ilə yanaşı, dövlət başçılarının anadilli ədəbiyyata göstərdikləri diqqət, qayğısının təzahürü əks olunur.

"XV əsr Azərbaycan ədəbi dilinin orfoqrafik xüsusiyyətlərinə ümumi baxış" adlanan hissədə isə müəllif əlifba ilə sıx bağlı olan orfoqrafiya məsələlərinə geniş toxunaraq, ədəbi dilin yazı qaydaları məhz həmin dövr üçün istifadə olunan əlifba sistemindən çox asılılığı məsələsi problem olaraq ortaya qoymuşdur. Bildiyimiz kimi, Azərbaycan yazılı ədəbi dili təşəkkülə başladığı dövrdən təxminən min illiklər boyu bir müddətdə ərəb əlifbasından istifadə etmişdir və dilimizin qrammatik, fonetik quruluşuna əsasən bu əlifbanın nöqsanlı olması uzun müddət ədəbi dilimizin dəqiq, düzgün, sabit orfoqrafiya normalarının düzəlməsinə, onun prinsiplərinin hazırlanması işində çətinliklər törətmişdir. Belə ki, dilimizdə işlənən sözlərin, xüsusilə ərəb və fars sözlərinin yazılışının alındığı həmin dillərin orfoqrafiyasında olduğu kimi saxlanılmasını məcbur etmişdir. Bu da dilin bütün inkişaf mərhələlərində sözlərin deyilişi və yazılışı arasında ağlasığmayan dərəcədə böyük fərqlər əmələ gətirmiş, Azərbaycan ədəbi dilində düzgün yazmaq və oxumaq vərdişlərini xeyli çətinləşdirmişdir. XV əsr Azərbaycan ədəbi dilinin fonetik normaları üçün mühüm əlamət bütün dövrlərdə olduğu kimi katiblər tərəfindən bir sözün iki və daha artıq qrafik şəkildə - variantda yazılmasında da müşahidə olunmaqdadır: Qamı//qəmu//xamu//xəmü//hamı; kibi//kimi//bigi. Əsərdə qeyd olunur ki, orta əsrlər yazılı mətnlərinin səciyyəvi xüsusiyyəti sırasında müşahidə olunan orfoqrafik imla sabitsizliyi ilə yanaşı, eyni zamanda eyni sözlərin ayrı-ayrı və müxtəlif şəkillərdə yazılması həmin leksik vahidlərin "müxtəlif türk dillərində, eləcə də Azərbaycan dilinin bir çox şivələrində fərqli şəkildə tələffüz olunmasını göstərmək niyyətindən" irəli gəlmişdir.

"XV əsr Azərbaycan ədəbi dilinin fonetik tərkibi: sait və samitləri" adlanan bölmədə XV əsr Azərbaycan ədəbi dilinin özünəməxsus fonetik quruluşu haqqında məlumat verilir, sait və samitlərin həm səs olaraq, həm də hərfi qrafem olaraq ayrılıqda təhlillərinə yer verilir, ən əsas, fərqli imla xüsusiyyətləri diqqətə çatdırılır. Məlumdur ki, Azərbaycan dilinin özünəməxsus fonetik quruluşu var: sait və samitlər həm səs olaraq, həm də hərfi qrafem kimi ayrılıqda yer alır və ən əsas, bu dilə məxsus sözlər ahəng qanununa tabe olur. Türk dilində ərəb əlifbası ilə sait və samitlərin yazılı dildə ifadəsi daha az imkanlara malikdir ki, bu da türkdilli mətnlərdə bəzi dolaşıqlara səbəb olmuş, problemlər yaratmışdır.

Diqqəti çəkən məqam XV əsr Azərbaycan ədəbi-bədii dil nümunələri üzərində tədqiqat zamanı saitlərin, həm də samitlərin fonetik paralelliklərinin ayrı-ayrılıqda təhlil edilməsidir. Belə ki, XV əsr Azərbaycan ədəbi dilində tez-tez rast gələnən səs hadisəsi kimi bir çox sözlərdə əks olunur, hətta bəzən iki şəklin işləndiyi də diqqəti çəkir. Məsələn, Rövşəni, Gülşəninin, Xəlili və Şirazinin dilində fonetik paralelliklər araşdırılır. Daha dəqiq desək, Rövşənidə bən//mən paralelliyi işləndiyi halda, Kişvərinin dilində yalnız mən variantı işləndiyi məqamlar vurğulanır.

Monoqrafiyanın ikinci fəsli "XV əsr Azərbaycan ədəbi dilinin leksik norması" adlanır, bu hissədə leksik normanın tədqiqi üçün dövrün yazılı mənbələrinin leksik faktları qruplaşdırılır, təhlil edilir və zənginliyi və rəngarəngliyi ədəbi dillə canlı danışıq dili arasında körpü rolunu oynadığı vurğulanır. Müəllif XV əsr ədəbi dilinin lüğət tərkibində öz tutumu ilə diqqəti cəlb edən qədim türk sözlərindən bəhs edərək qeyd edir ki, bu qrupa aid olan leksik vahidlərin böyük çoxluğu forma və mənaca heç bir dəyişikliyə məruz qalmadan bu gün də müasir Azərbaycan dilində olduğu şəkildə işlənir. Bu baxımdan, XV əsr Azərbaycan ədəbi dilində işlənən qədim türk sözlərini tarixi inkişaf nöqteyi-nəzərindən, əsasən, üç qisimdə verilir: leksik arxaizmlər - müasir ədəbi dilimiz üçün tam arxaikləşən sözlər; semantik arxaizmlər - semantik dəyişikliyə uğrayan sözlər; fonetik arxaizmlər - ilkin mənasını saxlamaqla fonomorfoloji dəyişikliyə uğrayan sözlər.

"XV əsr Azərbaycan ədəbi dilinin frazeoloji qatı" adlanan hissədə XV əsr ədəbi dilində frazeologiyanın leksik-semantik, qrammatik istiqamətdə səciyyəvi xüsusiyyətlərini təhlil edilərək həmin dövr yazılı abidələrin dilindəki fərdi dil üslubundan irəli gələn bir sıra əlamətlər tədqiqata cəlb olunur. Yazılı abidələrin dilində fraqmental olaraq hazır formada ədəbi dilə gətirilən frazemlərin şəkil və məzmun sabitliyi qorunaraq yazılı ədəbi dili canlı xalq danışıq dilinin maddi-mənəvi kaloritinə uyğunlaşdırmaq cəhdi kimi səciyyə daşıyır. Bəzən misralarda iki-üç idiomun bir yerdə yanaşı işləndiyini, misranın tamamilə idiomlardan təşkil olunduğunu görürük. Belə idiomlar Şirazinin, Rövşəninin dilində seçilir.

Monoqrafiyada müəllif diqqəti XV əsr Azərbaycan ədəbi dilində uzun tarixi inkişaf yolu keçərək müəyyən dövrlərdə daha da zənginləşən və sözyaratma imkanlarından lazımınca yararlanan söz yaradıcılığı prosesinə yönəldərək, dil faktları əsasında geniş təhlillər aparmışdır. Dövrün söz ustadları sadə sözlərlə yanaşı, düzəltmə və mürəkkəb sözlərdən özünəməxsus, yaradıcı şəkildə istifadə etmiş, zəngin üslubi imkanlardan bəhrələnmiş, canlı danışıq dilində olan məna rəngarəngliyini poeziyaya gətirmişlər. Tədqiqat zamanı XV əsr Azərbaycan yazılı abidələrində bu prosesin daşıyıcıları olan dil vahidlərinin morfoloji və sintaktik yolla əmələgəlmə üsulları nəzərdən keçirilmişdir. Qeyd edək ki, tarixi-müqayisəli aspektdə XV əsr Azərbaycan ədəbi dilində mövcud olan sözdüzəldici şəkilçilərin lüğət tərkibinin öz daxili imkanları hesabına zənginləşməsindəki həlledici roluna nəzər salınır, bu şəkilçilərin köməyi ilə yaranan düzəltmə sözlər müasir Azərbaycan dilində olduğu kimi, tarixən bütün inkişaf mərhələlərində aparıcı mövqeyi, rəngarəng, müxtəlif semantikalı leksik vahidlər yaratması, məna bütövlüyünü qoruması göstərilir.

Sonuncu fəsildə - "XV əsr Azərbaycan ədəbi dilində qrammatik norma"sında müəllif qrammatik normaları sözügedən dövrə aid əldə olan ədəbi mətnlərin materialları əsasında ümumi qrammatik kateqoriyalar prizmasından araşdırır, XV əsr Azərbaycan ədəbi dilinin inkişafı ilə sabitləşmiş qrammatik kateqoriyalar üçün səciyyəvi olan başlıca xüsusiyyətlər izah edir və bu kateqoriyaların hər birinin ayrı-ayrılıqda fərqli keyfiyyətlərini nəzərdən keçirir. Belə ki, Azərbaycan dilinin inkişaf tarixində sabitləşən, cilalanan ümumi qrammatik kateqoriyaların hər birinin ayrı-ayrılıqda özünəməxsus xüsusiyyətləri və fərqli əlamətləri nəzərə alınaraq tədqiqata cəlb olunur: Azərbaycan dilində hal kateqoriyası həmişə söz kökü+hal şəkilçisi struktur modelində olmuş, digər qrammatik kateqoryalara nisbətən daha erkən dövrlərdən formaca dəqiqləşməyə, normalaşmağa başlamışdır. Yazılı mənbələr üzərindəki araşdırmalardan bəlli olur ki, hal sistemində dilin əsas qrammatik qaydaları qalmaq şərtilə nisbətən müəyyən dəyişikliklər: semantik diferensiallaşma; halların işlənmə yerinə görə əvəzlənməsi; morfoloji göstəricilərinin istifadədən qalması, yaxud fonetik dəyişimi; bəzən öz funksiyasını itirərək başqa kateqoriyaya keçidi (-ın, -in qədim alət-birgəlik hal şəkilçisinin "ilə" qoşmasına "güzəşti"), sözyaratma prosesində yer alması (-ra, -rə, -ru, -rü, -ğaru, -ğərü, -ın, -in qədim hal göstəricilərinin zərfdüzəldən leksik şəkilçi kimi iştirakı) və s. kimi dildaxili qrammatik hadisələr baş vermişdir. Feilə aid qrammatik kateqoriyalar isə inkarlıq və zaman kateqoriyalarının ayrı-ayrılıqda səciyyəvi əlamətləri, xüsusiyyətləri üzərində araşdırılır. Mütləq və ya nisbi formada hərəkətin, əlamətin yoxluğunu əks etdirən inkarlıq anlayışı leksik, həm də qrammatik vasitələrin köməyi ilə yaranır.

Beləliklə, XV əsr Azərbaycan ədəbi dilində müşahidə edilən bütün dil xüsusiyyətləri, seçilən bütün dil faktları əsasında ərsəyə gələn "XV əsr Azərbaycan ədəbi dili" adlı monoqrafiya bir daha əyani surətdə göstərir ki, bu dövr ədəbi-bədii dilimiz öz xarakteri, sadəliyi, milliliyi baxımından ədəbi dil tarixində özünəməxsus rolu və mövqeyi ilə seçilir, bunun səbəbini isə hər şeydən əvvəl XV əsr ədəbi dilimizin ümumxalq dilinə daha çox yaxın olmasında, qaynayıb-qarışmasında axtarmaq lazımdır. Bu əsər elmi monoqrafiya olsa da, bir qədər sadə və rəvan dildə, ədəbi dil nümunələri əsasında yazıldığından kitab dilçilik elmimizə töhfə verməklə yanaşı, kütləvi oxucular üçün də maraqlı olacaqdır.

**İsmayıl MƏMMƏDLİ**
**AMEA İ.Nəsimi adına Dilçilik İnstitutu, Tətbiqi dilçilik şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor**

# Şəxs adları komissiyasının ilk iclası

**AMEA Rəyasət Heyətinin 13 mart 2026-cı il tarixli iclasında Azərbaycan Respublikasının Terminologiya Komissiyasının nəzdində Şəxs Adları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi müstəqillik dövrü Azərbaycan dilçiliyi və milli-mənəvi dəyərlər sisteminin inkişafı baxımından mühüm elmi, ictimai hadisə kimi dəyərləndirilə bilər. Müstəqillik illərində dil siyasətinin prioritet istiqamətlərindən biri kimi milli dilin qorunması, zənginləşdirilməsi və normativ əsaslarının möhkəmləndirilməsi xüsusi aktuallıq kəsb etmişdir. Bu kontekstdə şəxs adları sistemi yalnız dil faktoru deyil, eyni zamanda xalqın tarixi yaddaşını, mədəni kimliyini və mənəvi dəyərlərini əks etdirən mühüm göstərici kimi çıxış edir.**



Yaradılmış Komissiyanın gələcəkdə fəaliyyəti nəticəsində şəxs adlarının elmi əsaslarla sistemləşdirilməsi, onların düzgün yazılış və işlənmə normalarının müəyyənləşdirilməsi, dilimizin daxili qanunauyğunluqlarına uyğun olmayan təsadüfi və süni adların qarşısının alınması istiqamətində mühüm addımların atılacağı gözlənilir. Bununla yanaşı, milli ad fondunun qorunması və zənginləşdirilməsi, unudulmuş və tarixi ənənəyə malik adların yenidən dövriyyəyə qaytarılması da Komissiyanın əsas fəaliyyət istiqamətlərindən biri olacaqdır.

Şəxs Adları Komissiyasının yaradılması həm dilimizin saflığının qorunmasına, həm də milli kimliyimizin mühüm komponentlərindən biri olan ad sisteminin elmi nəzarət və tənzimləmə mexanizmləri əsasında inkişaf etdirilməsinə xidmət edən strateji əhəmiyyətli bir təşəbbüs kimi qiymətləndirilməlidir.

Komissiyanın yeni tərkibdə 13 aprel 2026-cı il tarixində Şəxs Adları Komissiyasının rəhbəri, AMEA Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədlinin sədrliyi ilə ilk iclası keçirilib. Bununla əlaqədar olaraq, yeni formalaşdırılmış Şəxs Adları Komissiyasının fəaliyyət istiqamətləri, qarşıya qoyulan strateji vəzifələr və bu istiqamətdə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər barədə məlumat verilib.

**Komissiyanın məqsədi və funksiyası:**
Komissiya tövsiyəedici orqandır.

**Əsas məqsəd:**
- adların elmi izahı və standartlaşdırılması; yanlış və süni adların qarşısının alınması; milli ad fondunun qorunması.

**Azərbaycan şəxs adlarının təsnifatı:**
Adların mənşəyinə (türk, ərəb, fars və s.), strukturuna (sadə: Əli, Murad; mürəkkəb: Əlibala, Əliyar; semantik baxımdan: dini, qəhrəmanlıq, təbiət və s.) görə elmi bazasının müəyyənləşdirilməsi.

**Adların düzgün yazılış və transliterasiya problemi (praktik olaraq ən çox problem buradadır):**
- latın qrafikasında standart yazılış qaydaları; eyni adın fərqli formaları (Əli / Ali, Hüseyn / Hüsein); xarici adların uyğunlaşdırılması.

**Qadağan edilmiş və ya arzuolunmaz adlar:**
- mənası mənfi olan adlar; uşağın psixologiyasına zərər verə biləcək adlar; süni şəkildə yaradılmış, dil qaydalarına uyğun olmayan adlar.

Burada məqsəd qadağa yox, elmi əsaslı tövsiyə siyahısı hazırlamaq olacaqdır.

**Yeni adların yaradılması prinsipləri:**
- bu proses xaotik yox, sistemli olmalıdır;

Prinsiplər: dil qaydalarına uyğunluq, semantik məna, fonetik ahəng, milli mentaliletdən kənara çıxmamaq.

**Milli ad fondunun qorunması:**
- unudulan qədim türk adlarının toplanması; elektron "ad bankı"nın qurulması.

**Normativ lüğət və açıq platforma yaradılması:**
- müstəqillik dövrü "Azərbaycan şəxs adları lüğəti"nin tərtibi; onlayn platforma: adın mənası, mənşəyi, düzgün yazılışı.

**Vətəndaş müraciətlərinin mexanizmi:**
İnsanlar ad seçərkən komissiyaya müraciət edə bilərlər. Ekspert rəy sistemi qurulmalıdır.

**Hüquqi əməkdaşlıq:**
Ədliyyə Nazirliyi ilə əlaqə; ASAN xidmət sisteminə inteqrasiya; Adların qeydiyyatında tövsiyələrin nəzərə alınması.

**İctimai maarifləndirmə:**
- televiziya, sosial mediada çıxışlar; "düzgün ad seçimi" mövzusunda kampaniyalar.

**Elmi tədqiqat istiqamətləri:**
- antroponimika üzrə araşdırmalar; adların psixoloji təsiri; regional ad fərqlilikləri.

Şəxs Adları Komissiyasının ilk iclasında Azərbaycan dilində şəxs adlarının yeni hazırlanmış soraq-məlumat toplusu müzakirə olunub. Komissiyanın üzvləri müstəqillik dövründə yaranmış adlar haqqında fikir və mülahizələrini bildirib və yeni şəxs adlarına dair təkliflərini səsləndiriblər. Şəxs adlarının müstəqillik dövrünün tələbləri əsasında hazırlanıb, müvafiq təşkilatlara təqdim olunması qərara alınıb.

# Birinci Türkoloji Qurultayın Naxçıvanda əks-sədası



**1926-cı ilin fevralında Bakıda öz işinə başlayıb 6 martda sona çatan və türk xalqlarının mədəni həyatında tarixi hadisəyə çevrilən Birinci Türkoloji Qurultaya hazırlıq işləri təkcə paytaxtı əhatə etmirdi, onun əks-sədası ölkənin digər regionlarına da gedib çatmışdı. Araşdırmalar göstərir ki, respublikanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da həmin qurultaya hazırlıq işləri aparılıb. Bu işlərin həyata keçirilməsində 1925-ci ilin mayında fəaliyyətə başlayan Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin (NTTC) sədri V.Həsənzadə, elmi katibi M.Mirheydərzadə, üzvlərindən M.Rasizadə, H.Səfərli, Ə.Rüstəmov, Ə.Qılmanov və başqaları aparıcı rol oynayıb.**

Naxçıvan Dövlət Arxivində saxlanılan və 2005-ci ildə bizim tərəfimizdən tam mətnləri çap etdirilən NTTC-nın fəaliyyətinə aid iclas protokollarından aydın olur ki, hazırlıq işlərinin ən mühüm tərkib hissəsi dinləyicilər üçün türk xalqlarının dili, ədəbiyyatı, tarixi və mədəniyyətinə aid mühazirələrin oxunması işinin təşkili olub.

Oktyabr ayında qurultayla bağlı müəyyən izahat işləri və məlumatlanma mərhələsi bitdikdən sonra Cəmiyyətin 5 noyabr 1925-ci il tarixli iclasında qərar qəbul edilir ki, "Cəmiyyətin türkoloji və ədəbiyyat bölməsi tezliklə gərək təşəbbüsatda bulunsun, bu yolda mühazirələr versin, maarif və ədəbiyyat xadimlərindən məlumat və materiallar toplasın".

Bu qərarın icrasını yubatmayan Cəmiyyətin türkoloji və ədəbiyyat bölməsi səhəri günü, yəni noyabrın 6-da keçirilən iclasda müzakirə üçün aşağıdakı mövzularda oxunacaq mühazirələrin adlarını təqdim edir. Təklif olunan mövzular noyabr ayının 10-da keçirilən iclasda yenidən müzakirə olunur, adları dəqiqləşdirilir və mühazirəçilər müəyyənləşdirilir.

"Dillərin tülu və qürubu" adlandırılan ilk mühazirəni Cəmiyyətin aparıcı üzvlərindən biri olan Şeyx Məhəmməd Rasizadə oxuyur.

20, 27 noyabr və 4 dekabr tarixli iclas protokollarından isə məlum olur ki, türkoloji və ədəbiyyat bölməsinin digər fəal üzvlərindən Həsən Səfərli "Türk dilinin mənşəyi və inkişafı", Əbdüləzim Rüstəmov "Türk dilinin bugünkü vəziyyəti, ərəb və latın əlifbası ilə tovsih və tənzimi", Əlisəttar Qılmanov "Türk millətinin ibtidai tarixi və dini təsəvvürləri" mövzularında cəmiyyət üzvləri və həvəskarlar qarşısında çıxış edir.

Protokollarda M.Rasizadə və Ə.Rüstəmovun mühazirələri haqqında yığcam məlumatlar diqqətə çatdırılır. H.Səfərli və Ə.Qılmanovun mühazirələrinin isə ixtisarla kiçik mətnləri verilib. Həmin mətnlərdə xeyli maraqlı məlumatlar və elmi mülahizələrlə rastlaşırıq. Bu baxımdan H.Səfərlinin mühazirəsi daha çox diqqəti cəlb edir. O, türk dillərinin mənşəyi və inkişafı haqqında danışarkən əvvəlcə türk mədəniyyətinin tarixinə nəzər salır, çin alimlərinin və A.Vamberi, A.Samoyloviç kimi dünya türkoloqlarının əsərlərinə istinad edərək dinləyicilərə bu mədəniyyətin qədim mənbələri haqqında məlumatlar verir. V.Radlov, V.Tomsen və başqalarının bu məsələ ilə bağlı nəzəriyyələrindən bəhs edir.

Ə.Qılmanov da müxtəlif mənbələrə, daha çox isə Z.Göyalpın tədqiqatlarının nəticələrinə söykənərək türk millətinin ibtidai tarixi və dini təsəvvürləri, xüsusilə totemizm haqqında ətraflı şəkildə danışır.

Protokollarda mühazirəçilərə verilən suallar və həmin suallara alınan cavablar da öz əksini tapıb. Dinləyicilərin maraq dairəsi, yaşadıqları dövrdə ictimai-siyasi proseslərə münasibəti haqqında müəyyən təsəvvür əldə etmək üçün verilən bəzi suallara nəzər salmaq kifayətdir: "Türklər mədəniyyəti nerədən almışlar?" "Dillər getdikcə artır, ya azalır?", "Mədəniyyət ən əvvəl hansı millətdən başqa millətə keçmişdir?", "Türklər nə zamandan oğuz və cığatay tayfalarından ayrılmışlar?", "Lisan və ədəbiyyatımızın tərəqqisi üçün Naxçıvanda nə kimi bir elmi müəssisənin olması lazımdır?", "Nə üçün Nizami və Füzuli kimi şairlərimiz türkcə yox, farsca şeir deməyə başlamışlar?"

Sualların hamısına cavab verilsə də, təəssüf ki, bu cavabların bir qismi protokollarda öz əksini tapmayıb. Məsələn, "Hərgah biz ərəb ləhcəsinə yavuq idik, nə üçün ləhcəmiz getdikcə ruslaşır?" Bu sualın qoyuluşunda Azərbaycan türkcəsində ruslaşma meyilləri ilə bağlı narahatlıq ifadə olunur. O vaxt həmin suala necə cavab verilməsi bizə bəlli deyil. Lakin bu fakt onu göstərir ki, sovet hakimiyyətinin ilk illərində rejim hələ çox möhkəmlənmədiyi üçün belə sualların verilməsinə imkan var imiş.

Yeri gəlmişkən, "Şərq qapısı" qəzetinin 1925-ci ilin dekabrında çıxan 52-ci nömrəsində "Bisavad" imzası ilə dərc edilən "İdarələrimiz türkləşməli, yaxud ruslaşmalı" adlı məqalədə də müəllif öz mövqeyini kəskinliklə ortaya qoyur. Onun fikrincə, bütün idarələrdə işlər türkcə (azərbaycanca - F.X.) aparılmalıdır ki, kəndli bir idarəyə gələndə yanında tərcüməçi gətirməsin.

NTTC-nin üzvü Mehdi bəy Hacınski 1926-cı ilin oktyabr ayında bu məsələyə yenə qayıdaraq "Pinəçi" imzası ilə yazdığı "Qorxaqlara" adlı felyetonunda türk dilində ruslaşma meyillərinə qarşı çıxır, bu dilə xor baxanları "qorxaq" adlandırır.

Lakin çox faciəli bir reallıqdır ki, ölkədə Stalin diktaturası möhkəmləndikdən sonra nəinki bu cür sualları verənlərə, yaxud düşünənlərə, hətta Birinci Türkoloji Qurultayda iştirak edən 131 nəfərdən 100-nə divan tutuldu. Onlar ya güllələndi, ya da Sibirə sürgün edildi.

Birinci Türkoloji Qurultaya Naxçıvandan üç nəfər getmişdir: Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi tərəfindən göndərilən Naxçıvanın maarif komissarı Hüseyn Musayev nümayəndə sifətilə, Naxçıvan XKS-nin sədri Həmid Sultanov və prokuror İbrahim Şəbüstəri dəvət olunmuş qonaq kimi. H.Musayev qurultay haqqında təəssüratlarını "Şərq qapısı" qəzetinin 18 mart 1926-cı il tarixli 9-cu nömrəsində "Birinci Türkoloji Qurultayı xatiratı" sərlövhəsilə dərc etdirmişdir. Məqalədə iki ilə yaxın bir müddətdə qurultaya hazırlıq işlərinin aparılması xatırladılır, gələn qonaqların milli tərkibi və onların içərisində Avropada məşhur olan türkoloqların da olması adbaad qeyd edilir, müzakirəyə çıxarılan problemlər üzərində dayanılır, məruzələrin Azərbaycan, türk, tatar, özbək, başqırd, rus və digər dillərdə oxunduğu diqqətə çatdırılır və çıxarılan qərarlar haqqında oxuculara dolğun məlumat verilir.

100 il bundan əvvəl Bakıda keçirilən Birinci Türkoloji Qurultaya Naxçıvanda hazırlıq işlərinin aparılmasına dair araşdırmalarımız sübut edir ki, bu qədim diyar Azərbaycanda bütün istiqamətlərdə, xüsusilə elm və mədəniyyət sahəsində həmişə aparıcı mövqedə olmuş və öz sözünü demişdir. Qurultayqabağı Naxçıvanda ziyalılara, həvəskarlara, tələbələrə və digər dinləyicilərə oxunan mühazirələrin onlarda türk dünyası haqqında müəyyən təsəvvürlər yaratmaq üçün mühüm əhəmiyyəti olmuşdur. Bu mühazirələrin rus imperiyasının basqısı altında yaşamağa məcbur olan xalqımızın milli şüurunun qorunmasında da özünəməxsus təsiri və rolu olmuşdur.

**Fərman XƏLİLOV**
**AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru**

# Azərbaycanın rəqəmsal strategiyası və sosial transformasiya: İnnovasiya və dayanıqlı inkişafın yeni paradiqması

**XXI əsr qlobal miqyasda rəqəmsal texnologiyaların sürətli inkişafı ilə səciyyələnir və bu proses dövlətlərin sosial, iqtisadi və siyasi strukturlarında köklü dəyişikliklərə səbəb olur. Rəqəmsallaşma artıq yalnız texnoloji yeniliklərdən ibarət deyil, eyni zamanda cəmiyyətin təşkilatlanma prinsiplərini, idarəetmə mexanizmlərini və dəyər sistemlərini yenidən formalaşdıran kompleks transformasiya prosesidir.**




Bu kontekstdə Azərbaycan da rəqəmsal strategiyasını formalaşdıraraq innovasiya, effektiv idarəetmə və dayanıqlı inkişaf istiqamətində mühüm addımlar atmaqdadır.Rəqəmsallaşma dövlət idarəçiliyindən tutmuş iqtisadi münasibətlərə, sosial davranış modellərindən dəyər sistemlərinə qədər geniş apektdə dəyişikliklər yaradır. Azərbaycan da bu qlobal tendensiyanın fəal iştirakçısı kimi öz rəqəmsal strategiyasını formalaşdırmış və onu sosial transformasiya ilə paralel şəkildə inkişaf etdirməyə başlamışdır.Ənənəvi yanaşmada rəqəmsallaşma informasiya və kommunikasiya texnologiyalarının tətbiqi kimi izah olunurdu. Lakin müasir mərhələdə bu anlayış daha geniş məna kəsb edir. Rəqəmsallaşma artıq sosial münasibətlərin təşkilində yeni paradiqma yaradır. Bu paradiqma informasiya axınlarının sürətlənməsi, qərarvermə proseslərinin optimallaşdırılması və fərdin cəmiyyət daxilində rolunun dəyişməsi ilə xarakterizə olunur.

Azərbaycanın rəqəmsal strategiyası da məhz bu paradiqmatik dəyişiklikləri nəzərə alaraq formalaşdırılmışdır. Burada əsas məqsəd yalnız texnologiyanın tətbiqi deyil, eyni zamanda idarəetmənin modernləşdirilməsi, vətəndaş iştirakının artırılması və sosial rifahın yüksəldilməsidir. Azərbaycanın rəqəmsal inkişaf modelinin ən mühüm istiqamətlərindən biri dövlət idarəçiliyində transformasiyadır. "Elektron hökumət" sisteminin tətbiqi, "ASAN xidmət" modelinin uğurlu fəaliyyəti və rəqəmsal platformaların genişlənməsi idarəetmədə keyfiyyətcə yeni mərhələ yaratmışdır. Bu sistemlər dövlət xidmətlərinin daha şəffaf, əlçatan və operativ olmasına imkan verir. Əvvəllər uzun bürokratik prosedurlar tələb edən xidmətlər indi bir neçə dəqiqə ərzində onlayn şəkildə həyata keçirilir. Bu isə yalnız vətəndaş məmnuniyyətini artırmır, eyni zamanda korrupsiya risklərini azaldır və idarəetmənin effektivliyini yüksəldir.

Analitik baxımdan bu proses "rəqəmsal dövlət" modelinə keçidin göstəricisidir. Rəqəmsal dövlət yalnız xidmət təqdim edən struktur deyil, eyni zamanda məlumatlara əsaslanan qərarvermə sistemi kimi çıxış edir. Bu isə siyasətin daha rasional və effektiv qurulmasına şərait yaradır. Rəqəmsal transformasiya dayanıqlı inkişaf məqsədləri ilə sıx bağlıdır. Rəqəmsal texnologiyalar resursların daha səmərəli istifadəsinə imkan yaradır, enerji istehlakını optimallaşdırır və ekoloji problemlərin həllinə töhfə verir. Azərbaycanda həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" layihələri yalnız texnoloji yenilik deyil, eyni zamanda sosial rifahın artırılması və regional inkişafın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Dayanıqlı inkişafın əsas prinsipi iqtisadi, sosial və ekoloji balansın qorunmasıdır. Rəqəmsal strategiya isə bu balansın təmin olunmasında effektiv alət kimi çıxış edir. Rəqəmsal strategiyanın əsas komponentlərindən biri innovasiyadır. İnnovasiya yalnız texnologiyaların tətbiqi ilə məhdudlaşmır, həm də yeni düşüncə tərzinin, yaradıcı yanaşmaların və bilik iqtisadiyyatının inkişafını əhatə edir. Azərbaycanda startap ekosisteminin formalaşdırılması, texnoparkların yaradılması və rəqəmsal sahibkarlığın təşviqi bu istiqamətdə atılan mühüm addımlardandır. Bu proseslər iqtisadiyyatın diversifikasiyasına, qeyri-neft sektorunun inkişafına və rəqabət qabiliyyətinin artırılmasına xidmət edir.

Rəqəmsallaşma sosial transformasiyanın əsas hərəkətverici qüvvələrindən biridir. İnformasiya və kommunikasiya texnologiyalarının geniş yayılması cəmiyyətin sosial strukturunda yeni münasibətlər sisteminin formalaşmasına gətirib çıxarır. Rəqəmsal platformalar vasitəsilə insanlar arasında ünsiyyət formaları dəyişir, sosial şəbəkələr ictimai rəyin formalaşmasında mühüm rol oynayır və vətəndaşların siyasi iştirak imkanları genişlənir. Bu isə demokratik proseslərin daha inklüziv və interaktiv xarakter almasına şərait yaradır.

Eyni zamanda rəqəmsal transformasiya dəyərlər sisteminə də təsir göstərir. Ənənəvi sosial münasibətlər yeni rəqəmsal mühitdə transformasiyaya uğrayır, fərdiyyətçilik, informasiya azadlığı və sürətli qərarvermə kimi dəyərlər ön plana çıxır. Bununla yanaşı, rəqəmsallaşma etik problemləri də gündəmə gətirir: şəxsi məlumatların qorunması, informasiya təhlükəsizliyi və rəqəmsal bərabərsizlik kimi məsələlər müasir cəmiyyət üçün aktual çağırışlara çevrilir.

Dayanıqlı inkişaf kontekstində rəqəmsal strategiya xüsusi əhəmiyyət kəsb edir. Rəqəmsal texnologiyalar resursların daha səmərəli istifadəsini təmin edir, ekoloji problemlərin həllinə yeni imkanlar yaradır və iqtisadi artımı sürətləndirir. Azərbaycanda "yaşıl enerji" və "ağıllı şəhər" konsepsiyalarının tətbiqi rəqəmsal və ekoloji siyasətin inteqrasiyasının bariz nümunəsidir. Bu yanaşma həm iqtisadi, həm sosial, həm də ekoloji balansın qorunmasına xidmət edir. Bununla belə, rəqəmsal transformasiya prosesi müəyyən risklərlə də müşayiət olunur. Rəqəmsal savadlılığın aşağı səviyyədə olması, texnoloji infrastrukturun qeyri-bərabər inkişafı və kiber təhlükələr bu sahədə əsas problemlər sırasındadır. Bu baxımdan dövlət siyasəti yalnız texnoloji inkişafı deyil, həm də insan kapitalının gücləndirilməsini, təhsil sisteminin modernləşdirilməsini və rəqəmsal bacarıqların artırılmasını hədəfləməlidir.

Azərbaycanın rəqəmsal strategiyası yalnız milli inkişaf məqsədləri ilə məhdudlaşmır, eyni zamanda qlobal rəqəmsal transformasiya proseslərinə inteqrasiya olunmağa yönəlib. Beynəlxalq əməkdaşlıq, innovasiya mübadiləsi və rəqəmsal diplomatiya bu istiqamətdə mühüm rol oynayır. Bu, Azərbaycanın qlobal rəqəmsal iqtisadiyyatda mövqeyini gücləndirir və ölkənin rəqabət qabiliyyətini artırır. Azərbaycanın rəqəmsal strategiyası qlobal kontekstdə də əhəmiyyətlidir. Beynəlxalq əməkdaşlıq, rəqəmsal diplomatiya və innovasiya mübadiləsi ölkənin qlobal rəqəmsal sistemə inteqrasiyasını gücləndirir. Bu, Azərbaycanın regional lider kimi mövqeyini möhkəmləndirir və onu rəqəmsal transformasiya sahəsində nümunəvi ölkələrdən birinə çevirir.

Nəticə etibarilə, Azərbaycanın rəqəmsal strategiyası sosial transformasiyanın əsas katalizatoru kimi çıxış edir və yeni paradiqmanın formalaşmasına təkan verir. İnnovasiya, effektiv idarəetmə və dayanıqlı inkişaf prinsiplərinə əsaslanan bu strategiya cəmiyyətin bütün sahələrində keyfiyyət dəyişikliklərinə səbəb olur. Rəqəmsallaşma yalnız texnoloji proses deyil, həm də sosial-fəlsəfi mahiyyətə malik olan kompleks transformasiya modelidir. Bu model çərçivəsində Azərbaycan müasir dünyanın çağırışlarına uyğun olaraq öz inkişaf yolunu formalaşdırır və gələcək üçün yeni imkanlar yaradır. Azərbaycanın rəqəmsal strategiyası yalnız texnoloji inkişaf proqramı deyil, daha geniş mənada sosial transformasiya modelidir. Bu model innovasiya, effektiv idarəetmə və dayanıqlı inkişaf prinsiplərinə əsaslanaraq cəmiyyətin bütün sahələrində keyfiyyət dəyişiklikləri yaradır. Rəqəmsallaşma nəticəsində formalaşan yeni paradiqma cəmiyyətin strukturunu, dəyərlər sistemini və idarəetmə mexanizmlərini yenidən müəyyənləşdirir. Bu proses həm imkanlar, həm də risklər yaratsa da, düzgün strategiya və effektiv idarəetmə ilə Azərbaycanın gələcək inkişafı üçün mühüm potensial təqdim edir. Beləliklə, Azərbaycanın rəqəmsal strategiyası müasir dövrün çağırışlarına adekvat cavab verən və gələcək nəsillər üçün dayanıqlı inkişaf modeli yaradan mühüm strateji istiqamət kimi çıxış edir.

**Kamran VƏLİZADƏ**
**Naxçıvan Dövlət Universitetinin baş müəllimi**

# Qobustanın qədim mədəniyyəti

**Azərbaycanın və Qafqazın qədim tarixinin tədqiqatları üçün ən zəngin abidələrdən biri Qobustan arxeoloji kompleksidir. Mezolit, Neolit və Tunc dövrlərinə aid düşərgələrdən, yaşayış yerlərindən və qəbir abidələrindən, minlərlə qayaüstü təsvirlərdən ibarət bu abidələr kompleksi həmişə arxeoloqların diqqətini cəlb etmişdir. Azərbaycanın şərqində, Xəzər dənizi sahilində yerləşən Qobustan abidələrində arxeoloqlar tərəfindən keçən əsrin 40-cı illərindən başlayaraq onilliklər ərzində 20-ə yaxın qayaaltı sığınacaqlarda, 40-a yaxın kurqanlarda və digər abidələrdə arxeoloji qazıntılar aparılmış 6 mindən çox qayaüstü təsvirlər aşkar edilmişdir (İ.Cəfərzadə, C.Rüstəmov, F.Muradova).**

Qobustanın "Ovçular zağası", "Ana zağa", "Qayaarası", "Qayaarası-2", "Kənizə", "Firuz", "Firuz-2", "Öküzlər-2" və s. düşərgələrində aparılmış qazıntılar bu abidələrdə Mezolit və Neolit dövrlərinin üzvi surətdə bağlı olduğunu göstərmişdir. Bu bağlılıq həm stratiqrafik ardıcıllıqda həm də daş alətlərin texniki-tipoloji xüsusiyyətlərinin varisliyində müşahidə edilir. Qayaarası, Anazağa, Firuz düşərgələri üzrə aparılmış radiokarbon analizlər (M.Fərəcova) Qobustan abidələrinin xronologiyası barədə yeni məlumatlar vermişdir. "Kənizə" və "Firuz" düşərgələrində qazıntılar zamanı aşkar edilmiş Mezolit və Neolit dövrlərinə aid tək və çoxdəfnli qəbirlər aşkar edilmişdir. Qobustan abidələrinin xronologiyası, mədəni mənsubiyyəti, semantikası və s. məsələlər barədə fərqli fikirlər də elmdə öz əksini tapmışdır (N.Müseyibli). Son illərdə Qobustanın yeni nəsil tədqiqatçılarının (R.Abdullayev və S.Şirinli) apardıqları çöl tədqiqat işləri nəticəsində, xüsusilə də Cingirdağ-Yazılıtəpə sahəsində çoxaylı təsvirlər aşkar edilmişdir.

Qobustanın Mezolit və Neolit dövrlərinə aid düşərgələri və onlardan aşkar edilmiş qəbir abidələri və daş alətlərin, qayaüstü təsvirlərin məcmusu burada ümumi kompleks təşkil edən Qobustan arxeoloji mədəniyyətinin mövcudluğunu göstərir.

Qobustan abidələrində uzun illər tədqiqatlar aparmış İ.Cəfərzadə, C.Rüstəmov və F.Muradova Qobustanın qədim mədəni irs olduğunu dəfələrlə qeyd etsələr də Qobustan abidələrinin ayrıca bir arxeoloji mədəniyyət olmasını sistemli şəkildə təhlil etməmişlər.

Rusiya arxeoloqu X.Amirxanov Qobustanın Neolit dövrünü əvvəlki Mezolit dövründən ayıraraq onu ayrıca bir arxeoloji mədəniyyət kimi təqdim etmişdir. O, kənar coğrafiya ilə bağlamağa çalışdığı bu mədəniyyətin diaqnostik, mədəniyyəttəyinedici materialı kimi çaxmaqdaşından hazırlanmış itiuclu tipli alətlərin "Uytaş tipli" adlandırdığı müəyyən bir qrupunu əsas kimi götürmüşdür. Belə alətlərin fərqləndirici cəhəti onların aşağı sonluğunun eyni vertikal dişəklə düz və ya çəpinə kəsilməsidir. X.Amirxanov bu mədəniyyəti e.ə. VI minillik-V minilliyin əvvəlinə aid etmişdir. Uytaş-2 Dağıstanın Xəzəryanı sahəsində, Mahaçkaladan 22 km cənubda V.İ.Markovin tərəfindən aşkar edilmiş tapıntı yeridir. Buradan toplanmış itiucluları X.Amirxanov "Uytaş tipli" kimi müəyyən etmiş, onların sayını 7 ədəd göstərmişdir. O, Qobustandan Uytaşa qədərki Xəzəryanı zolağı bu mədəniyyətin arealı kimi müəyyən etmişdir. Qobustanda X.Amirxanovun "Uytaş tipli" hesab etdiyi belə alətlər yüzlərlədir. Anazağa düşərgəsi üzrə tədqiqatlar, o cümlədən radiokarbon analizlərin nəticələri Qobustanda belə alətlərin Mezolit dövründən hazırlandığını ehtimal etməyə əsas verir.

X.Amirxanovun bu fikirləri ilə bağlı ilk növbədə belə bir sual yaranır: əgər doğrudan da müəyyən qrup itiuclu tipli daş alətlər əsasında Qobustan arxeoloji mədəniyyəti elan edilirsə və bu alətlərin əsas istehsal mərkəzi Qobustandırsa nə səbəbə bu mədəniyyətin əsas göstəricisi olan bu alətlər "Qobustan tipli" yox, "Uytaş tipli" kimi müəyyən edilməlidir? Digər tərəfdən, Qobustanda aparılmış qazıntılar zamanı aşkar edilmiş daş alətlər sırasında haqqında bəhs olunan itiuclu tipli alətlərin mövcudluğu barədə ilk dəfə tanınmış sovet-rus arxeoloqu A.A.Formozov yazmışdır. Keçən əsrin 60-cı illərində Qobustana səfərlər edən A.A.Formozov burada aparılan qazıntılarla və qayaüstü təsvirlərlə yaxından tanış olmuşdur. Əlbəttə, X.Amirxanovdan fərqli olaraq nə A.A.Formozov, nə də Qobustanda bilavasitə qazıntılar aparan arxeoloqlar həmin itiuclulular əsasında hər hansı bir arxeoloji mədəniyyətdən bəhs etməmişdilər: çünki bu, məntiqsiz bir yanaşmadır.

Lakin X.Amirxanov Qobustana həsr etdiyi məqalələrinin heç birində bu itiuclu tipli alətlərin vaxtilə A.A.Formozov tərəfindən qeyd edildiyi barədə bir kəlmə də olsa yazmamışdır. Əksinə, o, bunu özünün elmi yeniliyi kimi təqdim etmişdir.

X.Amirxanov Qobustan barədə nəşr etdiyi 3 məqaləsindən birini bu abidənin qayaüstü təsvirlərinə, onların xronologiyasına həsr etmişdir. Ümumiyyətlə heç bir vaxt qayaüstü təsvirlər problemi ilə məşğul olmamış X.Amirxanov birdən-birə çoxtəbəqəli Qobustan petroqliflərinin dövrünü müəyyən etməyə cəhd etmiş və gəldiyi nəticələri aksioma kimi təqdim etmişdir. Heç də təsadüfi deyil ki, onun bu cəhdləri də uğursuz alınmışdır. Belə ki, X.Amirxanov Qobustan təsvirlərinin ən qədimlərini Üst Paleolit dövrünə - 24-25 min il bundan əvvələ aid etmişdir. Bunun üçün əsas olaraq ilk növbədə Qobustanın qədim düşərgələrində aşkar edilmiş bir qrup daş alətləri əsas götürmüşdür. Onun fikrincə həmin daş alətlərin tarixi 24-25 min ildən az ola bilməz və müvafiq olaraq bu alətlərdən istifadə etmiş qədim insanlar həm də buradakı rəsmləri çəkmişlər. Bu tarixi göstərən radiokarbon analizlər olmadan X.Amirxanovun belə mütləq yaş göstərməsi sadəcə qeyri-ciddidir. O, həm də Qobustan təsvirləri ilə dünyanın digər regionlarındakı Üst Paleolit dövrü rəsmləri arasında heç bir müqayisəli təhlillər aparmamışdır.



Qobustanda bu vaxtadək Üst Paleolit dövrünə aid mədəni təbəqə aşkar edilməmişdir. Digər tərəfdən, X.Amirxanovun daha qədim hesab etdiyi daş alətlər, aşkar edilmiş alətlərin ümumi statistikasında 10%-dən çox deyil və həmin alətlərin aşkar edildiyi mədəni təbəqənin daş məmulatının 90%-i Mezolit dövrünə aiddir. Eyni zamanda, həmin ən qədim mədəni təbəqə üzrə aparılmış radiokarbon tarixləndirmə e.ə. XII minilliyi, yəni Mezolit dövrünün əvvəlini göstərmişdir. Ən yaxşı halda bu mərhələdə əvvəlki, Üst Paleolit dövrünün daş alətlərinin hazırlanma texnologiyasının bəzi ənənələrinin saxlanmasını ehtimal etmək olar.

X.Amirxanovun tarixləndirmə üçün irəli sürdüyü digər arqument qayaüstü təsvirlərin üzərindəki təbii çöküntünün səviyyəsidir. Onun fikrincə üzərində daha çox çöküntü olan təsvirlər daha qədimdir. Lakin X.Amirxanov bu məsələdə lokal təbii amilləri nəzərə almamışdır. Belə ki, Qobustan bilavasitə Xəzər dənizinin sahilində yerləşir və burada iqlim kifayət qədər rütubətlidir. Bu isə öz növbəsində qayalar üzərində çöküntülərin daha çox əmələ gəlməsinə səbəb olmuşdur. Bundan əlavə, Qobustan qayaları əhəngdaşından ibarətdir və bu daşlar üzərində qısa zamanda, bəzən 40-50 il müddətində kifayət qədər təbii çöküntülər əmələ gəlir. Buna görə də bəzən Mezolit və ya Neolit dövrü təsvirləri ilə Orta əsr təsvirləri üzərində çöküntünün səviyyəsi eynidir. Digər tərəfdən, bu məsələdə təsvirlərin yerləşdiyi şərait də önəmli rol oynayır. Məsələn, açıq şəraitdəki, qayaların quzeyindəki son dövr təsvirləri üzərində çöküntü qayaaltı sığınacağın divarındakı daha qədim dövrlərə aid təsvirlər üzərindəki çöküntüdən qat-qat çoxdur. Bütün bunlar X.Amirxanovun tarixləndirmə üçün irəli sürdüyü "çöküntü" nəzəriyyəsinin də yanlış olduğunu göstərir. Buna görə də abidənin tarixinin süni şəkildə qədimləşdirməyə əsas yoxdur.

Ümumiyyətlə, Qobustan təsvirlərinin ən qədimlərini ilk dəfə məhz A.A.Formozov hələ 60-cı illərdə Avrasiyanın Üst Paleolit abidələri ilə müqayisə etmiş, lakin son olaraq bu təsvirləri Mezolitin əvvəli ilə tarixləndirmişdir. Bundan illər sonra Qobustanın tədqiqatçıları da (İ.Cəfərzadə və bu sətirlərin müəllifi istisna olmaqla) bu abidələr kompleksinin ən qədim mərhələsini Üst Paleolit dövrünə aid etmişlər. Lakin yuxarıda qeyd edildiyi kimi, bunun üçün təkzibolunmaz faktlar hələlik aşkar edilməmişdir.

Qobustan mədəniyyəti ilə bağlı qeyd edilməlidir ki, müəyyən qrup daş məmulatı əsasında arxeoloji mədəniyyətlərin müəyyən edildiyi Paleolit dövründən fərqli olaraq Neolit dövrü çoxkomponentlidir və bu dövrə aid mədəniyyət müəyyənləşdirilərkən bütün bunlar nəzərə alınmalıdır. Xüsusilə də Qobustan kimi zəngin, müxtəlif növ maddi mədəniyyət qalıqları olan bir abidə üzrə arxeoloji mədəniyyət müəyyən etmək üçün X.Amirxanovun etdiyi kimi yalnız bir tip daş alətləri əsas götürmək kifayət deyildir. Belə ki, Qobustanda Mezolit və Neolit dövrlərinin mədəni təbəqələri irsi onlara sıx bağlıdırlar və Neolit dövrü Mezolitin bilavasitə davamıdır. Müvafiq olaraq bu məsələdə həmin dövrləri ayrılıqda nəzərdən keçirmək dolğun nəticələrə gətirib çıxarmır.

Qobustanın Mezolit və Neolit dövrlərinə aid abidələri demək olar ki, eyni xüsusiyyətlərə malik olub, konkret zaman çərçivəsində lokal bir ərazidə cəmləniblər. Bu ərazidə Mezolit və Neolit dövrlərində insanların həyat tərzi, məşğuliyyəti, həyat təminatı, mənəvi mədəniyyəti demək olar ki, eyni olmuşdur. Buna görə də Mezolit və Neolit dövrlərinə aid bütün bu abidələrin məcmusunu "Qobustan arxeoloji mədəniyyəti" kimi müəyyən etmək daha düzgündür. Qobustanın regionun digər arxeoloji komplekslərindən fərqli, özünəməxsus xüsusiyyətləri belə bir nəticəyə gəlməyə imkan verir.

Cənubi Qafqazın mərkəzi və Araz hövzəsi bölgələrinin Neolit dövrü əhalisi düzənlik sahələrdə məhsuldar torpaqlarda, çay vadilərində məskunlaşıb əkinçilik və maldarlıqla məşğul olurdular. Ovçuluq təsərrüfatın yardımçı sahəsi olub onların fəaliyyətinin 3-4 %-ni təşkil edirdi. Bu əhalinin yaşayış məskənlərinin qalıqları günümüzə qədər təpələr formasında saxlanmışdır.

Onlardan fərqli olaraq Qobustanın Mezolit-Neolit dövrü sakinləri dağlıq-qayalıq ərazidə müxtəlif ölçülü qayaaltı sığınacaqlardakı düşərgələrdə yaşayır, ovçuluq və yığıcılıqla məşğul olurdular. Belə düşərgələrdən ən irisi olan mağara tipli Anazağa sığınacağı 100 m2 artıq sahəni əhatə edir. Ən uzun müddətli yaşayış da məhz burada olmuşdur.

Düşərgələrdən aşkar edilmiş maddi mədəniyyət qalıqları əsasən daş alətlərdən ibarətdir. Bunların əksəriyyəti çaxmaqdaşından, müəyyən qismi isə çay daşlarından hazırlanmışdır. Obsidiandan alətlərə çox az hallarda rast gəlinir ki, bu da təbii-coğrafi şəraitlə, Qobustanda və bilavasitə ətraf zonada obsidian yataqlarının olmaması ilə bağlı idi. Halbuki, Azərbaycanın digər həmdövr abidələrinin obsidian alətləri ümumi məmulatın 85-90 %-ni təşkil edir.

Qobustanın düşərgələrində Mezolit dövrü təbəqələrindən çaxmaqdaşından düzəldilmiş geometrik alətlər aşkar edilmişdir. Neolit dövründə Mezolit dövründəki bir sıra alətlərin istehsalı davam etsə də bəzi dəyişikliklər müşahidə edilir. Burma üsulu ilə alətlərdə oyuq açmaq, bəzi daş alətlərin cilalanması üsulları, biçin (oraq) funksiyalı yığma alətlər meydana çıxır. Qobustanda Neolit keramikaya qədərki ilk mərhələyə aiddir. Burada Neolitin inkişaf etmiş, keramikalı mərhələsi zəif izlənilir. Neolit dövründə heyvanların qismən əhliləşdirilməsinə başlanılmış, istehsal vərdişləri nisbətən artmışdır. Qafqaz regionunda Mezolit və Neolit dövrlərində yalnız Qobustan sakinləri Xəzər dənizində balıq ovunda qayıqlardan istifadə edirdilər.

Qobustanın Kiçikdaş dağı sahəsindəki Firuz düşərgəsində və Böyükdaş dağı sahəsindəki yuxarı terrasda Kənizə düşərgəsində müvafiq olaraq Mezolit və Neolit dövrlərinə aid qəbirlər də tədqiq edilmişdir. Bir neçə qəbir çoxdəfnli olmuşdur. Cənubi Qafqazın digər bu tipli həmdövr qəbirlərində skeletlər xaotik şəkildə aşkar edilmişdir. Qobustanda isə çoxdəfnli qəbirlərdə dəfnlər müəyyən adətlərə uyğun, yanı üstə bükülü vəziyyətdə icra edilmişdir.

Qobustanda müxtəlif ölçülü əhəngdaşı qayalarında qazma üsulu ilə çəkilmiş 6 mindən çox rəsmlər aşkar edilmişdir. Rəsmlərin böyük əksəriyyəti məhz Mezolit-Neolit dövrlərinə aiddir. Bu dövr təsvirləri bəzi istisnalarla başlıca olaraq Böyükdaş və Kiçikdaş dağları sahələrində aşkar edilmişdir. Düşərgələrin daxili divarlarını təşkil edən qayalarda təsvirlər daha sıx, biri-birinin üstündə həkk edilmişdir. Bu, eyni yerdə həyatın uzun müddət davam etməsi ilə bağlı olmuşdur.

Mezolit və Neolit dövrlərinə aid təsvirlər rəsm etmə üslubu, mövzuları ilə seçilirlər. İnsan təsvirləri müxtəlif ölçülərdə, bəzən natural ölçülərə yaxın, anfas və profildən olmaqla bir neçə üslubda verilmişdir: kontur, içərisi çəpinə ştrixlərlə doldurulmuş kontur və siluet. Kişilər ox-kamanla silahlanmış, bəzən qurşaq hissəni tutan geyimdə təsvir edilmişlər. Qadınlar daha çox siluet və içərisi xətlənmiş kontur üslubda abstrakt təsvir edilmişlər. Bəhs edilən dövrə aid heyvan rəsmləri əsasən realist üslubda verilmiş öküz təsvirləridir. Qədim rəssamlar oküzləri çox zaman böyük, natural ölçülərə yaxın həcmdə təsvir etməyə çalışmışlar. Bir qayda olaraq öküzlər sağa və ya sola yönəlmiş, tək, qoşa və ya sürü halında rəsm edilmişlər.

Qobustan abidələrinin spesifik xüsusiyyətlərindən biri e.ə. VII-VI minilliklərə aid qayıq təsvirləridir. Xəzər dənizinin sahilində məskunlaşan qədim qobustanlılar qayıqlar (çox güman ki, qamışdan) düzəldərək dənizə çıxmış və balıq ovu ilə məşğul olmuşlar. Qobustanda qayıq təsvirlərinin sayı 160-dan çoxdur. Bəzən onların içərisində insanların olduğunu bildirən sxematik təsvirlər çəkilmişdir.

Qobustanın Mezolit və Neolit dövrlərinə aid qayaüstü təsvirlərinin, xüsusilə də insan, öküz və qayıq rəsmlərinin üslub, mövzu və xronologiya baxımından Qafqaz, Yaxın Şərq və ümumiyyətlə yaxın regionlarda antalogiyası məlum deyildir.

Beləliklə, Qobustan özünəməxsus, fərqli düşərgələri, qəbir abidələri, petroqlifləri, digər həmdövr mədəniyyətlərinin əkinçi-maldar təsərrüfatından fərqli olaraq ovçu-yığıcı təsərrüfata malik və insanlarının bütün bunlardan irəli gələn dünyagörüşü, mənəvi mədəniyyəti ilə seçilən ayrıca bir arxeoloji mədəniyyətdir. Bu mədəniyyət Mezolit və Neolit dövrlərini əhatə edib, e.ə. XII minillikdən V minilliyin əvvəllərinə qədər davam etmişdir. Neolitdən sonra Qobustanda yaşayış kəsilmiş, sonrakı dövrlərdə məskunlaşmalar fasilələrlə baş vermişdir. Gələcək tədqiqatlar nəticəsində Qobustan mədəniyyətinin coğrafiyasının geniş arealda - Xəzərin qərb, cənubi-qərb və cənub sahili zolağında müəyyən ediləcəyi istisna deyildir.

**Nəcəf MÜSEYİBLİ**
**tarix elmləri doktoru, professor**

# Əlişa qalasından unikal tapıntı: Orta əsr saxsı qab ilk dəfə KT ilə tədqiq edilib

**AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun "Arxeoloji abidələrin qeydiyyatı və pasportlaşdırılması" şöbəsinin müdiri, t.ü.f.d. Mikayıl Mustafayevin müəllifi olduğu elmi məqalə "Archaeology of Kazakhstan" jurnalında (Scopus) dərc olunub.**



Məqalə Astara rayonundakı Əlişa qalasında 2025-ci il qazıntıları zamanı aşkar edilən nadir keramika qabına həsr olunub.

Tədqiqatın əsas obyekti XI-XIII əsrlərə (Səlcuqlar dövrü) aid olan, üzərində ştamplanmış həndəsi ornamentlər daşıyan saxsı qabdır. Bu tapıntı öz xüsusiyyətlərinə görə yalnız yerli arxeoloji material üçün deyil, bütövlükdə Cənubi Qafqaz regionunun orta əsr maddi mədəniyyətinin öyrənilməsi baxımından da xüsusi əhəmiyyət kəsb edir.

Qabın ən diqqətçəkən cəhətlərindən biri onun üzərində yerləşdirilmiş 9 fərqli ştamplanmış həndəsi motivdir. Bu motivlər - dairələr, romblar, ulduzvari kompozisiyalar və xətti ornamentlər - Səlcuq dövrünün geniş yayılmış bədii ənənəsinə aid olsa da, onların qab üzərində sistemli (friz şəklində) deyil, sərbəst və qeyri-təkrarlanan formada yerləşdirilməsi bu nümunəni unikal edir. Bu xüsusiyyət qabın iri istehsal mərkəzlərində deyil, yerli emalatxanada hazırlandığını göstərir.

Tədqiqatın ən mühüm yeniliklərindən biri isə bu saxsı qabın ilk dəfə olaraq kompüter tomoqrafiyası (KT) vasitəsilə analiz edilməsidir. Qeyri-dağıdıcı bu metod arxeologiyada nadir hallarda tətbiq olunur və abidənin fiziki bütövlüyünə zərər vermədən onun daxili quruluşunu öyrənməyə imkan verir.

**KT analizi nəticəsində müəyyən edilmişdir ki:**

- Qabın divar qalınlığı müxtəlif hissələrdə fərqlidir (2.0 mm-dən 5.7 mm-ə qədər),
- Bu qeyri-bərabərlik onun əl ilə hazırlandığını təsdiqləyir,
- Qab bir mərhələdə deyil, hissə-hissə (çoxmərhələli şəkildə) formalaşdırılmışdır,
- Daxili birləşmə xətləri və konstruktiv xüsusiyyətlər aydın şəkildə müşahidə olunmuşdur.

Bu nəticələr göstərir ki, sözügedən qab kütləvi istehsal məhsulu deyil, yerli ustalar tərəfindən hazırlanmış gündəlik istifadə əşyasıdır. Eyni zamanda, KT texnologiyası vasitəsilə əldə edilən məlumatlar ənənəvi vizual müşahidə ilə mümkün olmayan yeni elmi faktları üzə çıxarmışdır.

Müqayisəli təhlillər göstərir ki, bu qabın bədii və texnoloji xüsusiyyətləri Şamaxı, Şabran və Beyləqan kimi Azərbaycan şəhərləri ilə yanaşı, Xarəzm və Xorasan kimi Şərq mərkəzlərinin keramika ənənələri ilə də səsləşir. Bununla yanaşı, Qızıl Orda dövrünə aid Sarayçıq keramikası ilə müqayisə uzunmüddətli texnoloji davamlılığı da sübut edir.

Araşdırma nəticələri orta əsr Azərbaycanında yerli sənətkarlıq ənənələrinin, istehsal texnologiyalarının və dekorativ üslubun inkişafını öyrənmək baxımından yeni elmi məlumatlar təqdim edir. Əlişa qalasında aparılacaq gələcək tədqiqatların bu sahədə daha geniş nəticələr verəcəyi gözlənilir.

Bu tədqiqat Azərbaycan arxeologiyasında həm yeni materialın elmi dövriyyəyə daxil edilməsi, həm də müasir texnologiyaların tətbiqi baxımından mühüm addım hesab olunur.

# Azərbaycanlı alimin "Sufi fenomenologiya" adlı monoqrafiyası "Springer" nəşriyyatında çap olunub

**AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Könül Bünyadzadənin "Sufi fenomenologiya" adlı monoqrafiyası nüfuzlu "Springer" nəşriyyatında çapdan çıxıb.**




Əsər Azərbaycan və ümumilikdə Şərq fəlsəfi düşüncəsində qadın müəllif tərəfindən irəli sürülmüş ilk sistemli fəlsəfi konsepsiyalardan biri kimi dəyərləndirilir.

Dörd hissə və 15 paraqrafdan ibarət olan monoqrafiyada sufilik və fenomenologiya ənənələrinin sintezi əsasında şüur, həqiqət və varlıq problemlərinə yeni fəlsəfi yanaşma təqdim olunur. Müəllif Şərq və Qərb düşüncə ənənələrinə istinad edərək mənəvi idrakla rasional təhlili birləşdirən vahid metod irəli sürür və bunu insanlığın əbədi həqiqət axtarışı kontekstində əsaslandırır.

Qeyd edilir ki, əsərdə əksini tapan ideyalar nəşrdən əvvəl yüksək impakt faktorlu elmi jurnallarda dərc olunub, nüfuzlu beynəlxalq konfranslarda müzakirə edilib. O cümlədən, 2024-cü ildə İtaliyanın paytaxtı Roma şəhərində keçirilmiş XXV Dünya Fəlsəfə Konqresində təqdim olunub.

"Sufi fenomenologiya" Dünya Fenomenologiya İnstitutunun təsisçisi, amerikalı filosof Anna-Tereza Timieniçka tərəfindən əsası qoyulmuş "İslam fəlsəfəsi və Qərb fenomenologiyası dialoqda (IPOP)" seriyasının 9-cu cildi kimi nəşr edilib. Bildirilir ki, əsasən kollektiv müəlliflərin iştirakı ilə hazırlanan bu seriyada sözügedən əsər tək müəllif tərəfindən yazılmış nadir monoqrafiyalardan biridir.

Əsər ilk dəfə 2023-cü ildə Azərbaycan dilində iki cilddə nəşr olunub, elmi ictimaiyyət tərəfindən geniş müzakirə edilib. Kitab haqqında müxtəlif elmi rəylər yazılıb, Azərbaycan Milli Elmlər Akademiyasında təqdimatı keçirilib, Rəyasət Heyətində, ali təhsil müəssisələrində və beynəlxalq konfranslarda müzakirə olunub.

Hazırda monoqrafiyada irəli sürülən konsepsiya Türkiyə tədqiqatçıları tərəfindən də araşdırılır, beynəlxalq konfranslarda təqdim edilir və magistratura səviyyəsində elmi tədqiqat mövzusu kimi öyrənilir.

Əsərin elmi əhəmiyyəti nəzərə alınaraq "Springer" nəşriyyatı onu çap versiyası ilə yanaşı, elektron kitab formatında da və görmə məhdudiyyətli oxucular üçün uyğunlaşdırılmış şəkildə də təqdim edib. Monoqrafiya artıq dünya kitabxanalarına, həmçinin beynəlxalq kitab sərgiləri və satış şəbəkələrinə göndərilib.

# Qasım bəy Zakirin yaradıcılığı ilə bağlı mühüm elmi faktlar əldə edilib

**Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda aparılan tədqiqatlar nəticəsində Azərbaycan satirik poeziyasının görkəmli nümayəndəsi Qasım bəy Zakirin yaradıcılığı ilə bağlı mühüm elmi faktlar əldə edilib.**



Araşdırmalar zamanı indiyədək nəşr olunmuş əsərlərdə yol verilmiş qüsurlar aradan qaldırılıb, arxiv və əlyazma materiallarının təhlili nəticəsində şairin müxtəlif janrlarda yazdığı 29 yeni şeir onun külliyyatına daxil edilib. Bununla yanaşı, 1964-cü il nəşrində "Əlavələr" bölməsində şübhəli hesab edilən "Hacı Böyük bəyə" adlı müxəmməsin Qasım bəy Zakirə məxsus olduğu tutarlı elmi faktlarla sübuta yetirilib.

Tədqiqat zamanı müəlliflik məsələlərinə də yenidən baxılıb. Belə ki, "Ölümü" rədifli müxəmməs, eləcə də "Üstünə", "Gəlmədi" və "Oldu" rədifli qoşmaların Zakirə deyil, şəkili şair Molla Qasım Zakirə aid olduğu müəyyənləşdirilib və bu nümunələr Qasım bəy Zakirin əsərləri sırasından çıxarılıb.

Əldə olunan nəticələr əsasında nəşr edilən "Qasım bəy Zakir. Əsərləri" kitabı şairin irsinin tam və elmi cəhətdən dəqiqləşdirilmiş külliyyatı kimi qiymətləndirilir.

# Mərkəzi Elmi Kitabxanada sərgi



**Hər il aprelin 15-i Beynəlxalq Mədəniyyət Günü kimi qeyd olunur. Bu münasibətlə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) "15 aprel - Beynəlxalq Mədəniyyət Günüdür" adlı kitab sərgisi təşkil edilib.**

MEK-in fondlarındakı nəşrlər əsasında hazırlanan ənənəvi sərgidə mədəniyyət və incəsənət tarixi, musiqi, memarlıq, xalçaçılıq, teatr və kino sənətinə dair azərbaycan, türk, rus və ingilis dillərində dəyərli əsərlər nümayiş olunur.

Sərgidə "Heydər Əliyev və Azərbaycan incəsənəti", "Heydər Əliyev və Bakının memarlığı", "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz", "Prezident İlham Əliyev və mədəniyyət (2008-2013)" II cilddə, "Prezident İlham Əliyev və mədəniyyət (2013-2018)" II cilddə, "Mehriban Əliyeva. Azərbaycan mədəniyyətinin hamisi", "Mədəniyyətlərarası dialoq", "Mədəni müxtəliflik sosial-siyasi dəyər kimi", "Vseobhaə istoriə iskusstv", "Azərbaycanın milli təsviri sənəti. The national fine arts of Azerbaijan 1960-1990", "Sokroviha muzeev mira", "Türkiyenin somut olmayan kültürel mirası", "Ethnocultural heritage of Caucasian Albania", "İçərişəhər Azərbaycan tarixində", "Mədəniyyətlərin beşiyi: Təbriz", "Qərbi Azərbaycan abidələri", "Teatr", "Azərbaycan multikulturalizmi", "Staraə Şuşa", "Azərbaycan xalça muzeyi", "The color of Azerbaijan Motherland", "Hindistan etnoqrafiyası", "Mədəniyyətdə tarixilik və müasirlik", "Qarabağ xanəndələri", "Azərbaycan incəsənəti dünya muzeylərində" adlı kitablar öz əksini tapıb.

Sərgi iki həftə müddətində davam edəcək.

# Elmi Mərkəzin əməkdaşları monitorinq aparıblar

**AMEA-nın Şəki Regional Elmi Mərkəzinin Landşaftşünaslıq və Ekoloji coğrafiya şöbələrinin əməkdaşları tərəfindən Balakən və Zaqatala rayonlarında növbəti monitorinq işləri həyata keçirilib.**



Monitorinqlər Balakən rayonunun Poçtbinə və Mahamalar kəndlərində, eləcə də Zaqatala rayonunun Mazıx və Talaçay ərazilərində aparılıb. Tədqiqat zamanı qeyd olunan ərazilərdə çay yataqlarından lil nümunələri götürülərək analiz üçün toplanılıb.

Bununla yanaşı, Mahamalar kəndi ərazisində Balakənçay üzərində yerləşən və kəndi ətraf yaşayış məntəqələri ilə birləşdirən körpünün beton dayaqlarında əvvəl aparılmış ölçmələrə yenidən baxış keçirilib.

